


## Türkdilli dövlətlər vahid platformada

10


# Səs

№ 174 (6615) 24 sentyabr 2022-ci il. Qiymətı 60 qəpik


## İLHAM ƏLİYEV: "Bizimlə heç kim ultimatum dili ilə danışa bilməz!"

2



# Nüvə müharibəsinə doğru...

4



*Kremlin nüvə silahı ilə bağlı son bəyanatları əvvəlkilərdən daha konkretdir və Rusiya Federasiyasının Ukraynanın əks-hücumuna görə döyüş meydanında uduzduğu bir vaxta təsadüf edir. ABŞ bir neçə ay ərzində Moskvaya mesajlar göndərərək Rusiya rəhbərliyinə nüvə silahından istifadənin doğura biləcəyi ciddi nəticələr barədə xəbərdarlıq edib. Bu barədə ABŞ rəsmilərinə istinadən Washington Post (WP ) yazır.*

## Azərbaycanda internetin sürəti niyə zəifdir?



7

## Yanis Yukşa: "ABŞ-ın İrəvandakı səfirliyində yüzlərlə kəşfiyyatçı işləyir"



15

13



*Xoş gəlirsən, gəl, payızım. Səni təntənəsiz, təmtəraqsız qarşılamaqmı olar? Ey fəsillər fəsli, mövsümlərin şahı, zəfər payızım, gəl! Gəl ki, zəfərimizin ikinci ilini bayram edək. Gəl ki, şəni minlərimizə laylay edək. Gəl, payızım-zəfərim. Digər mövsümlərtək çox da sevilməyən, lakin 2020-dən hər kəsin sevimlisi fəslim, gəl.*

## Xoş gəldin, Zəfər fəsli!




## Avtomobillərin icbari sığorta haqları yeni qaydalarla hesablanacaq

## Şakira ayrılıqdan sonra ilk dəfə - "Karyeramı Pikeyə qurban verdim"

16



*Məşhur müğənni Şakira sevgilisi futbolçu Jerar Pikedən ayrılandan sonra ilk dəfə kamera qarşısına keçərək məsələ ilə bağlı açıqlama verib. Axşam.az xəbər verir ki, ifaçı "Elle"yə müsahibəsində həyatının bu mərhələsini "ən qaranlıq dövrlərdən biri" adlandırıb.*



## Şad xəbər: Pensiyalar bu qədər arta bilər!

# İLHAM ƏLİYEV: "Bizimlə heç kim ultimatum dili ilə danışa bilməz!"



***Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, həm iqtisadi, həm mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb edir. Həmçinin, səfərlər zamanı ölkə başçımızın səsləndirdiyi hər fikir sadəcə Ermənistana deyil, ona hələ də havadarlıq edən dairələrə ünvanlanmış mesajlar idi. Sentyabrın 21-də Azərbaycan Prezidenti İlham Əliyevin Laçın şəhərinə səfəri çərçivəsində irəli sürdüyü qətiyyətli mesajları bir daha Ermənistanı "düz yola" gəlməyə və sülh prosesinin əldə olunmasına mane ola biləcək istənilən cəhdlərin qarşısını almağa qadir olduğu xərdarlığıdır.***

Və işğalçı ölkə bilməlidir ki, Azərbaycan-Ermənistan sərhədində söz sahibi olan da Azərbaycandır, yəni nə Ermənistandır, nə də başqa bir dövlət. Bu baxımdan da, ölkg başçımızın səsləndirdiyi hər fikir sadəcə Ermənistana deyil, ona hələ də havadarlıq edən dairələrə ünvanlanmış mesajlar idi. Azərbaycan bütün region ölkələrindən bölgədə sülhün bərqərar olması üçün səylərini daha da artırmasını gözləyir. Bu baxımdan Prezident İlham Əliyevin sentyabrın 21-də Laçına səfəri zamanı bir daha Ermənistana növbəti dəfə xəbərdarlığını etdi.

## Əgər düşmən bizə qarşı təxribat törədəcəksə, layiqli cavabını verəcəyik

Dövlət başçısı Laçın şəhərində Azərbaycan Bayrağını ucaldan zaman çıxışında bildirib ki, bu gün Ermənistan yaxşı fikirləşməlidir: "Bizimlə heç kim ultimatum dili ilə danışa bilməz və heç kimə də bel bağlamasınlar. Mən bir daha demək istəyirəm ki, bizi heç kim və heç nə dayandıra bilməz. Biz haqqın, ədalətin, beynəlxalq hüququn tərəfdarıyıq və öz ərazi bütövlüyümüzü qoruyuruq, qorumuşuq, bərpa etmişik. Bütün dünyaya göstərə bilmişik ki, nəyə qadirik, torpaqlarımızı güc yolu ilə azad etmişik və bununla fəxr edirik. Bütün Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları bununla fəxr edir. Biz şəhidlərimizlə, Ordumuzla, hərbçilərimizlə fəxr edirik və bu gün burada dalğalanan üçrəngli Bayrağımız bizim Zəfərimizin rəmzidir". "Avqustun 26-da Azərbaycan Ordusu Laçın şəhərinə daxil oldu və biz Laçın şəhərini qaytardıq. Bu, tarixi hadisədir. Laçın şəhərinin azad edilməsi həmişə tarixdə qalacaq. Bu gün Laçın şəhərində, şəhərin mərkəzində, mərkəzi küçədə Azərbaycan Bayrağını qaldırmışam. Bu bayraq burada əbədi dalğalanaca"- deyən Prezident İlham Əliyev bildirib ki, Laçın şəhərinin işğal altında olmuş bütün başqa yaşayış məntəqələri kimi erməni vandalizminə məruz qalıb: "Erməni vandalizminin təzahürləri hər bir kənddə, hər bir şəhərdə var. Ağdam şəhəri tamamilə yerlə-yeksan edilib, Füzuli şəhəri də, həmçinin Cəbrayıl şəhəri də, bütün kəndlər. Bəzi yerlərdə, o cümlədən Laçın şəhərində ermənilər qanunsuz məskunlaşma aparmışdılar, Ermənistandan və daha çox xaricdən - Suriya və Livandan erməni əsilli insanları gətirib burada qanunsuz yerləşdirmişdilər. Bu, hərbi cinayətdir, bütün beynəlxalq konvensiyalarda hərbi cinayət kimi təsbit edilir və bu cinayət dünya ictimaiyyətinin gözü qarşısında baş vermişdir".

## Minsk qrupunun həmsədrləri Laçında qanunsuz məskunlaşma aparıldığını görür, ancaq buna göz yumurdular

Dövlət başçısı Laçın şəhərinin böyük hissəsinin tamamilə viran qoyuldğunu, dağıdıldığını, bəzi yerlərdə qanunsuz məskunlaşmanın aparıldığını söyləyib və bildirib ki, dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar, o cümlədən bu məsələ ilə birbaşa məşğul olan Minsk qrupunun həmsədrləri buna sadəcə olaraq, göz yumurdular: "Halbuki dəfələrlə bu mənzərəni görürdülər, dəfələrlə. Bax, bu yolla Ermənistandan Qarabağa, Qarabağdan Ermənistana gedərək görürdülər ki, burada qanunsuz məskunlaşma aparılır. Görürdülər ki, Azərbaycan toponimləri sıradan çıxarılır. Görürdülər ki, bizim tarixi, qədim Azərbaycan torpağı olan Laçın erməniləşdirilir, burada qanunsuz məskunlaşma aparılır. Ancaq buna göz yumurdular, sanki bununla razılaşırdılar. Biz Azərbaycan xalqı isə bununla heç vaxt razılaşa bilməzdik. Mən hər dəfə deyirdim ki, heç vaxt imkan verə bilmərik bizim torpağımızda ikinci erməni dövləti yaradılsın".

## Sentyabrın 13-də Azərbaycan Ordusu düşməni yenə də yerinə oturtdu

"Yəni, bizə qarşı müharibə davam edir, bizim insanlarımız həlak olur. Biz buna imkan verə bilərikmi? Heç vaxt buna imkan verə bilmərik. Ermənistanı dəfələrlə xəbərdar etmişik, bu çirkin əməllərdən əl çəksin, peşman olacaq",-deyən dövlət başçısı qeyd edib ki, nəticə etibarilə sentyabrın 13-də bizə qarşı növbəti təxribat törədilərkən Azərbaycan Ordusu cavab verərək düşməni yenə də yerinə oturtdu: "Ümid edirəm ki, nəhayət bu, onlara dərs olacaq. Çünki gördülər ki, bizi heç kim və heç nə dayandıra bilməz. Heç kimin zəngi, heç bir bəyanat, heç bir təşəbbüs bizi dayandıra bilməz. Biz öz torpağımızdayıq və öz torpağımızı qoruyuruq. Sərhəd boyunca əldə etdiyimiz mövqelər imkan verir ki, biz istənilən erməni təxribatını qabaqcadan görək və lazımi tədbirlər görək". Prezident İlham Əliyev çıxışında bildirib ki, bütün Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları şəhidlərimizlə fəxr edir: "Biz şəhidlərimizlə, Ordumuzla, hərbçilərimizlə fəxr edirik və bu gün burada dalğalanan üçrəngli Bayrağımız bizim Zəfərimizin rəmzidir".

## Beynəlxalq təşkilatlar, o cümlədən BMT, onun Təhlükəsizlik Şurası, ATƏT işğalçı dövləti məcbur edib çıxarmalı idi

"Onu da bildirməliyəm ki, 26 avqust tarixində Laçın şəhəri ilə birlikdə Zabux və Sus kəndləri də işğalçılardan azad edilmişdir",- deyən Prezident İlham Əliyev bildirib ki, yəni, bütün bu tarixi biz heç vaxt unutmamalıyıq: "Biz şəhidlərimizin canı, qanı bahasına, qəhrəman əsgər və zabitlərimizin fədakarlığı sayəsində bu gün bu torpaqlardayıq. Heç kim bu torpaqları bizə bağışlamayıb, heç kim bu torpaqları bizə danışıqlar yolu ilə qaytarmayıb. Beynəlxalq təşkilatlar, o cümlədən BMT, onun Təhlükəsizlik Şurası, ATƏT işğalçı dövləti məcbur edib buradan çıxarmalı idi. Ermənistana qarşı sanksiyalar tətbiq edilməli idi. Bunların heç biri görülmədi. Əksinə, bu işğalı əbədiləşdirmək üçün Ermənistan, dünya erməniliyi və onların xaricdəki havadarları birləşərək bu çirkin niyyəti həyata keçirmək istəyirdilər. Mən isə həmişə deyirdim ki, Azərbaycan xalqı buna heç vaxt razı olmayacaq. Həmişə deyirdim ki, məsələ sülh yolu ilə həll olunmasa, bunu hərb yolu ilə həll edəcəyik və etdik. Cəmi 44 gün ərzində Ermənistan ordusunu darmadağın etdik. Alınmaz qala sayılan Şuşanı azad etdik. Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Hadrutu, Xocavəndi döyüş meydanında azad etdik. Düşmən diz çökdü və Laçını, Kəlbəcəri, Ağdamı tərk etməyə məcbur oldu. Bu gün Laçın şəhərində olarkən haqlı olaraq qürur hissi keçirirəm ki, qədim Azərbaycan torpağında bizim üçrəngli Bayrağımız dalğalanır".

## Biz ta Murov dağından Araz çayına qədər Azərbaycan-Ermənistan sərhədində əlverişli mövqelərdəyik

Dövlət başçısı onu da vurğulayıb ki, Ermənistan hələ üstəlik, son aylar ərzində dəfələrlə bizə qarşı hərbi təxribatlar törədib: "Təkcə Laçın rayonu ərazisində 1400-dən çox yeni mina döşənmişdir və bu minalar 2021-ci ildə basdırılmışdır, yəni, müharibədən sonra. Bu, Azərbaycana qarşı açıq terror hərəkətidir". Dövlət başçısı müharibədən sonra 240-dan çox Azərbaycan vətəndaşının mina partlayışı nəticəsində ya həlak olduğunu, ya da ağır yaralandığını xatırladıb: "Yəni, bizə qarşı müharibə davam edir, bizim insanlarımız həlak olur. Biz buna imkan verə bilərikmi? Heç vaxt buna imkan verə bilmərik. Ermənistanı dəfələrlə xəbərdar etmişik, bu çirkin əməllərdən əl çəksin, peşman olacaq. Nəticə etibarilə sentyabrın 13-də bizə qarşı növbəti təxribat törədilərkən Azərbaycan Ordusu cavab verərək düşməni yenə də yerinə oturtdu. Ümid edirəm ki, nəhayət bu, onlara dərs olacaq. Çünki gördülər ki, bizi heç kim və heç nə dayandıra bilməz. Heç kimin zəngi, heç bir bəyanat, heç bir təşəbbüs bizi dayandıra bilməz. Biz öz torpağımızdayıq və öz torpağımızı qoruyuruq."

## Delimitasiya prosesi başlasa da, mahiyyət üzrə heç bir danışıqlar aparılmır

Dövlət başçısı müharibədən dərhal sonra Ermənistana sülh təklif edilsə də, hələ də işğalçı ölkə müqaviləyə əməl etmir: "Bu da dünya hərb tarixində bəlkə də nadir hallardan biridir ki, 30 il ərzində torpağımız işğal altında olsun, insanlarımız əzab-əziyyət içində yaşasın, tarixi-dini abidələrimiz dağıdılsın, şəhərlərimiz dağıdılsın, milyondan çox mina döşənsin, buna baxmayaraq, biz sülh təklif etdik. Ancaq yenə də görürük ki, Ermənistan sülh istəmir, yenə də revanşist fikirlərlə yaşayır". Dövlət başçısı deyib ki, biz təklif etdik ki, delimitasiya prosesinə start verək: "Bunu təxminən bir ildən çox müddət ərzində uzatdı. İndi isə bu proses başlasa da, sırf formal xarakter daşıyır, mahiyyət üzrə heç bir danışıqlar aparılmır, xəritələr üzrə heç bir müzakirə aparılmır. Biz bütün xəritələri hazırlamışıq. Həm XX əsrin xəritələrini, həm əvvəlki dövrün xəritələrini və delimitasiya işləri bu xəritələr üzrə aparılmalıdır". Prezident İlham Əliyev qeyd edib ki, Ermənistanla sülh müqaviləsini imzalamaq üçün 5 prinsip təklif etmişik: "Sözdə onları qəbul ediblər, amma biz bunu əməldə görmürük. Yenə də vaxt uzatma taktikası. Ermənistanın 2020-ci il noyabrın 10-da imzaladığı kapitulyasiya aktına əsasən, erməni silahlı qüvvələri Qarabağdan çıxarılmalı idi. Hələ də tam çıxarılmayıb. Ermənistan Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasının birləşməsini təmin edən dəhliz verməli idi. Bu günə qədər nəinki dəhliz verilməyib, hətta dəhlizin marşrutu bizə deyilməyib. Heç bir praktiki iş aparılmayıb. Biz isə indi dəmir yolunu Zəngilana qədər çəkmişik. Avtomobil yolunu Zəngilana qədər çəkmişik. Biz gələn ilin sonunda Ermənistan sərhədinə həm dəmir yolunu, həm avtomobil yolunu gətirəcəyik. Ancaq Ermənistan ərazisində heç bir iş görülmür və görünür ki, heç bir iş görmək istəmirlər. Yenə də vaxt uzadırlar".

## Müharibə dövründə 10 min fərarisi olan ölkə müharibə aparmaq iqtidarında deyil

"İkinci Qarabağ müharibəsi olmaya da bilərdi, əgər Ermənistan bizim sözümüzə baxsaydı. Əgər öz xoşu ilə torpaqlarımızdan çıxsaydı, İkinci Qarabağ müharibəsi olmaya bilərdi. 2016-cı ilin Aprel döyüşləri bizim çox böyük qələbəmiz idi, mənəvi cəhətdən və strateji nöqteyi-nəzərdən. O döyüşlər nəticəsində azad etdiyimiz yüksəkliklər bizə əlavə imkanlar yaratdı, o cümlədən İkinci Qarabağ müharibəsində uğurlu yürüşümüzə də zəmin yaratdı",-deyən dövlət başçısı qeyd edib ki, aprel döyüşlərindən sonra Ermənistan qorxuya düşmüşdü və faktiki olaraq işğal edilmiş torpaqlardan qoşunları çıxarmağa hazır idi, hətta buna söz vermişdi:"Ancaq ondan sonra sözünü tutmadı. Aprel döyüşləri onlar üçün dərs olmadı. Ondan iki il sonra Naxçıvanda "Günnüt" əməliyyatı keçirildi, strateji yüksəkliklər nəzarətə götürüldü. Bu da onlara dərs olmadı. Nəhayət İkinci Qarabağ müharibəsi Ermənistan ordusunun tamamilə darmadağın edilməsi ilə nəticələndi və müzəffər Azərbaycan Ordusu öz doğma torpaqlarını azad etdi. Biz hesab edirdik ki, nəhayət bu, onlara dərs olacaq. Çünki Ermənistan ordusu tamamilə dağılmış vəziyyətdədir. Müharibə dövründə 10 min fərarisi olan ölkə müharibə aparmaq iqtidarında deyil, nə fiziki cəhətdən, nə mənəvi cəhətdən".Bir sözlə, dövlət başçımızın dediyi kimi: "Əminəm ki, bizim bu gün gördüyümüz işlər, o cümlədən ordu quruculuğu sahəsində gördüyümüz işlər Azərbaycanı daha da gücləndirəcək və Ermənistanda baş qaldıran revanşist qüvvələrə cavab olacaq. Biz öz torpağımızdayıq. Biz bu torpağa qan tökərək, şəhidlər verərək qayıtmışıq. Bu torpaqda möhkəm dayanmışıq və bu torpaqlarda əbədi yaşayacağıq. Qarabağ Azərbaycandır!".

***RƏFİQƏ HÜSEYNOVA***

# Zəfərə aparan tarixi yol



## İlham Əliyev: "Cəmi 44 gün ərzində Ermənistan ordusunu darmadağın etdik"

2020-ci ilin 27 sentyabr tarixi. Bu, artıq Azərbaycanın çoxəsrlik tarixinə yeni açılmış səhifə olaraq əbədi həkk olunub. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi. Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Bu gün bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq!-deyən Prezident İlham Əliyev onu da bildirib ki, "Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!". Bəli, bu gün Azərbaycanın güclü ordusu, yenilməz ordusu var. O ordu ki, döyüş meydanında öz gücünü göstərə bildi. 44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla ümumilikdə 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.

### "DÜŞMƏN DİZ ÇÖKDÜ VƏ LAÇINI, KƏLBƏCƏRİ, AĞDAMI TƏRK ETMƏYƏ MƏCBUR OLDU"

Azərbaycan Prezidenti İlham Əliyev Laçına səfəri çərçivəsində çıxışında bildirdiyi kimi, "Cəmi 44 gün ərzində Ermənistan ordusunu darmadağın etdik. Alınmaz qala sayılan Şuşanı azad etdik. Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Hadrutu, Xocavəndi döyüş meydanında azad etdik. Düşmən diz çökdü və Laçını, Kəlbəcəri, Ağdamı tərk etməyə məcbur oldu. Bu gün Laçın şəhərində olarkən haqlı olaraq qürur hissi keçirirəm ki, qədim Azərbaycan torpağında bizim üçrəngli Bayrağımız dalğalanır". 44 günlük Zəfərimiz Azərbaycan tarixinin ən şanlı və qürulu bir səhifəsidir. 44 gün - zaman baxımından çox qısa, tarixə isə əsrlərə bərabər bir gündür. Ötən əsrin son onilliyində baş verən ictimai-siyasi proseslər və torpaqlarımızın işğalı zamanı ermənilərin təcavüzkar siyasət həyata keçirərək insanlıq əleyhinə vəhşilik törətmiş oldular. Həmin illərdə torpaqlarımızın işğalı ilə yanaşı, mülki əhaliyə böyük ziyan vurmuş, tarix-mədəniyyət abidələrini, infrastrukturu dağırtmış, ağılasığmaz vəhşiliklərə imza atmışlar. 30 ilə yaxın işğal altında saxlanılan ərazilərimizdə yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılmışdır. Erməni barbarlığının nəticəsi olaraq fərdi və çoxmənzilli yaşayış evləri məhv edilmişdir. Bu gün müharibədən sonrakı dövrdə torpaqlarımıza qayıdarkən erməni təcavüzkarlarının hansı işləri görməsi insanları dəhşətə gətirir. Müzəffər Azərbaycan ordusu və onun Sərkərdəsi Cənab İlham Əliyev tariximizə yeni bir gün yazdı. Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində "Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur" - deməsi tariximizə Zəfərin yazılması ilə daxil oldu: "Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır". Bu müraciət xalqın tarixində əhəmiyyətli bir tarixə çevrildi. Zaman-zaman Azərbaycan xalqının torpaq uğurunda savaşını, böyüklüyünü, bütövlüyünü, lazım gələndə bir yumruq olaraq birləşməsini yetişən nəsillərə illər, qərinələr, əsrlər sonra belə təqdim edəcək. Azərbaycan ordusu bu gün Vətən Müharibəsində öz gücünü, nəyə qadir olduğunu göstərdi.







Təbii ki, bu uğurlu yolda neçə-neçə oğullarımız canlarından keçdi, şəhidlik zirvəsinə yüksəldilər. Onların qarşısında baş əyirik və Azərbaycan xalqı hər zaman onların xatirəsini yad edəcək. Belə oğulların keçdiyi yollar ərənlik məktəbi olaraq öyrənilir. Dövlət başçısının Sərəncamı ilə Azərbaycan Respublikasında Anım Günü təsis edilib. Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Sərəncama əsasən, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd ediləcək.Bu müharibə dövründə düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətdilər. Həmvətənlərimizin bir çoxu şəhid oldu, itkin düşdü, sağlamlığını itirdi. Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edildi. Xalq-iqtidar birliyi zəfər, qələbə tarixini yazdı.Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

### "DƏMİR YUMRUQ" ƏMƏLİYYATI XXI ƏSRİN MÜHARİBƏSİ OLARAQ DÜNYA TARİXİNDƏ YER ALDI

Bu gün xalqımızın, milyonlarla insanın qürur hissi ilə ziyarət etdiyi məkanlar sırasında Hərbi Qənimətlər Parkı da var. Yaşından asılı olmayaraq, hər kəs 44 günlük Vətən müharibəsində Ordumuzun gücünün, işğalçı Ermənistanın məğlubiyyətinin göstəricisi olan Hərbi Qənimətlər Parkına üz tutaraq Azərbaycan ordusunun qalibiyyətini bir daha görmüş olurlar. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktikanın döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatı XXI əsrin müharibəsi olaraq dünya tarixində yer aldı. Bu dünya tarixində görünməmiş Vətən müharibəsi kimi qiymətləndirildi. Hərbi Qənimətlər Parkının açılışı Vətən müharibəsində parlaq qələbəmizin bir rəmzinə çevrildi. Paytaxtımızda yerləşən Hərbi Qənimətlər Parkına səyahət edən hər bir kəs, istər azərbaycanlı olsun, istərsə də qeyri-xalqın nümayəndəsi, ermənilərin döyüş meydanından qoyub qaçdığı atıcı silahları, ağır texnikaları, raket komplekslərini, hərbi nəqliyyat və digər sursatlar görür və ermənilərin məğlub xalq olduqlarının bir daha şahidinə çevrilirlər. Bildiyimiz kimi, dekabrın 10-da keçirilmiş Zəfər paradında həmin texnikaların bir qismi nümayiş etdirilmişdi. Açıq səma altında salınan Hərbi Qənimətlər Parkında Zəfər paradının ən yaddaqalan və rəmzi kompozisiyalardan biri olan Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhə də parkın ərazisində yer alıb.

### "DƏMİR YUMRUQ" YENƏ QILINC KİMİ BAŞLARININ ÜZƏRİNDƏDİR"

Bu gün Hərbi Qənimətlər Parkına gələnlər nümayiş etdirilən qənimətlər sırasında KUB zenit-raket kompleksi, düşmənin 150-dək ağır texnikası, "T-72" tankları, piyadaların döyüş maşınları, 2S1 "Qvozdika" özüyeriyən artilleriya qurğusu, "Osa" zenit-raket kompleksi və digər eksponatları ilə tanış olurlar. Əlbəttə ki, burada yer alan hər bir eksponat diqqəti cəlb edir. Axı 44 günlük müharibədən əldə olunmuş qənimətlər bizi qələbəyə doğru aparırdı. Tarix boyu bu eksponatlara maraq olacaq. Belə ki, parkın diqqəti çəkən hissələrindən olan 30 il ərzində düşmən tərəfindən möhkəmləndirilmiş müdafiə mövqeyi əks olunan, özündə 10 elementdən ibarət mühəndis-maneələr sistemini ehtiva edənərazidir. Burada 5 metr enində, 3-4 metr dərinlikdə qazılan tank əleyhinə xəndək, mina sahəsi, tank əleyhinə beton dirəklər və metal kirpilər, alçaq dirəklər üzərində tikanlı məftildən tor, hündür dirəklərdə məftilli tor, piyada əleyhinə mina sahəsi, az nəzərə çarpan və üçrəngli lent tipli məftil maneələri, həmçinin səngər üzərində lent tipli məftil maneələr nümayiş olunur. Bu maneələr sistemi Füzuli, Cəbrayıl, Ağdam, Tərtər və Goranboy istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin dəf etməli olduğu mühəndis sistemlərindən idi.

Azərbaycan Ordusu müasir hərbi texnologiyaları döyüş şəraitində uğurla tətbiq etməklə Ermənistanın Qarabağdakı bütün hərbi infrastrukturunu və hərbi texnikasını sıradan çıxardı. Beləliklə, Hərbi Qənimətlər Parkı Azərbaycan Ordusunun döyüş əzminin, qəhrəmanlığının təcəssümüdür. Hərbi Qənimətlər Parkı müharibənin bütün mərhələsini özündə əks etdirir. Burada nümayiş etdirilən bütün qənimətlər göstərir ki, Qəhrəman Azərbaycan Ordusu döyüş meydanında böyük şücaət, qəhrəmanlıq göstərərək düşmən üzərində qələbə çaldı. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin bildirdiyi kimi, İkinci Qarabağ müharibəsi də bizim gücümüzü göstərdi, müasirliyi göstərdi. Azərbaycanın Vətən müharibəsindəki qələbəsi onun şanlı səhifəsinə yazılıb. Müzəffər Ali Baş Komandanın dediyi kimi, "Biz yeni reallıq yaratmışıq. Biz qan tökərək, cəsarət göstərərək, düşməni qovaraq yeni reallıq yaratmışıq. Bu gün hər kəs bizimlə hesablaşmalıdır və hesablaşacaqdır. Bəli, başqa yolları, çarələri yoxdur. Əks təqdirdə, "dəmir yumruq" yenə qılınc kimi başlarının üzərindədir və hər an yenidən işə düşə, sarsıdıcı zərbəsini endirə bilər".

***Nəzakət ƏLƏDDİNQIZI***

# Nüvə müharibəsinə doğru...



## ABŞ-dan Rusiyaya nüvə silahından istifadə ilə bağlı xəbərdarlıq

***Kremlin nüvə silahı ilə bağlı son bəyanatları əvvəlkilərdən daha konkretdir və Rusiya Federasiyasının Ukraynanın əks-hücumuna görə döyüş meydanında uduzduğu bir vaxta təsadüf edir. ABŞ bir neçə ay ərzində Moskvaya mesajlar göndərərək Rusiya rəhbərliyinə nüvə silahından istifadənin doğura biləcəyi ciddi nəticələr barədə xəbərdarlıq edib. Bu barədə ABŞ rəsmilərinə istinadən Washington Post (WP ) yazır.***

ABŞ rəsmiləri deyirlər ki, Bayden administrasiyası ümumiyyətlə, nüvə zərbəsinin nəticələri ilə bağlı xəbərdarlıqları qəsdən qeyri-müəyyən saxlamaq yolunu seçib və Kremli Vaşinqtonun necə reaksiya verə biləcəyi barədə narahat edir.

Nüvədən çəkindirmə dünyasında buna "strateji ikili düşüncə" deyirlər. Bildirilir ki, mesajların məzmunu, eləcə də kimin ötürüldüyü açıqlanmasa da, onlar Dövlət Departamenti vasitəsilə göndərilib.

### Rusiyanın nüvə şantajı

Rusiya prezidenti Vladimir Putinin 21 sentyabr çıxışı zamanı nüvə təhlükəsini təkrarlamasından sonra ABŞ-ın yeni mesajlar göndərib-göndərmədiyi də məlum deyil, lakin yüksək rütbəli ABŞ rəsmisi bu mesajların son aylarda ardıcıl olaraq göndərildiyini bildirib. Bayden administrasiyasının rəsmiləri fevralın 24-də müharibə başlayandan bəri Rusiya rəhbərliyinin nüvə silahından istifadə ilə hədələməsinin ilk dəfə olmadığını vurğulayaraq, Rusiyanın qaçılmaz zərbəyə hazırlaşarkən nüvə silahlarını hərəkət etdirdiyinə dair heç bir işarənin olmadığını bildirib.



Lakin Rusiya rəhbərliyinin son bəyanatları əvvəlki şərhlərdən daha konkretdir və Rusiyanın Ukraynanın əks-hücumuna görə döyüş meydanında uduzduğu bir vaxta təsadüf edir. Kremlin əvvəlki bəyanatları ABŞ və müttəfiqlərini Ukraynaya həddən artıq kömək etməkdən çəkindirmək məqsədi güdürsə də, Putinin son şərhləri Rusiyanın Ukraynadakı döyüş meydanında öz qazanclarını dondurmaq, Kiyevi və tərəfdarlarını məcbur etmək üçün nüvə silahından istifadə etməyi düşündüyünü göstərir. Vaşinqtondakı Silahlara Nəzarət Dərnəyinin icraçı direktoru Daryl Kimball deyib ki, bu, onilliklər ərzində nüvə silahının istifadə oluna biləcəyi ən böyük olmasa da, ən böyük epizodlardan biridir. Hətta "məhdud nüvə müharibəsi"nin nəticələri tamamilə fəlakətli olacaq.

Amerikalı ekspertlər illərdən bəri narahatdırlar ki, Rusiya öz şərtləri əsasında adi müharibəyə son qoymaq üçün bəzən "döyüş meydanında nüvə silahları" adlandırılan kiçik taktiki nüvə silahlarından istifadə edə bilər. WP qeyd edir ki, Rusiya ABŞ-ın müqavilə üzrə müttəfiqi olmayan Ukraynada kiçik nüvə silahından istifadə edərsə, Bayden administrasiyası böhranla üzləşəcək. ABŞ-ın Rusiyaya qarşı hər hansı birbaşa hərbi cavabı nüvə silahına malik supergüclər arasında daha geniş müharibə riski ilə nəticələnəcək. Bayden administrasiyasının Ukrayna siyasətində 1 nömrəli prioriteti isə bundan qaçınmaqdır.

### Putin kütləvi qırğın silahlarından istifadə edəcəkmi?

Rusiya Federasiyasının prezidenti Vladimir Putin dəfələrlə Ukraynanı və dünyanı nüvə silahından istifadə ilə hədələyib. Xüsusilə, sentyabrın 21-də Rusiya Federasiyasında qismən səfərbərliyin elan edilməsinə həsr olunmuş çıxışında Putin bunu açıq şəkildə deyib: "Rusiyaya qarşı nüvə şantajı həyata keçirilir... Rusiya da mövcud olan bütün vəsaitlərdən istifadə edəcək, bu, blef deyil".

Ertəsi gün Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev də ilhaq edilmiş Ukrayna ərazilərini qorumaq üçün nüvə silahından istifadə etməklə hədələyib, Rusiya Federasiyası nəzarətində olan Ukrayna ərazilərində referendum keçirəndən sonra bu əraziləri özününkü hesab edəcək. Onun sözlərinə görə, Rusiya bu əraziləri qorumaq üçün təkcə yeni səfərbər edilmiş qüvvələrindən deyil, həm də "istənilən rus silahlarından, o cümlədən strateji nüvə silahlarından, eyni zamanda hipersəs silahlarından istifadə edə bilər.

ANALİTİK

Ardı Səh. 5

# Nüvə müharibəsinə doğru...







Əvvəli-Səh-4

Rus təbliğatçıları da təhdidləri artırmaqdan əl çəkmirlər. Məsələn, Vladimir Solovyov çıxışlarının birində bütün dünyanı nüvə müharibəsi ilə hədələmişdi. Eyni zamanda, ukraynalı hərbi ekspertlər hesab edirlər ki, Rusiya Federasiyasının bu cür hücumları Ukraynanı danışıqlar masasına oturtmaq və onu Kremlin şərtləri ilə razılaşmağa məcbur etmək məqsədi daşıyan nüvə şantajından başqa bir şey deyil.

Bununla belə, məsələn, Prezident Aparatının müşaviri Aleksey Arestoviç hesab edir ki, Rusiya həqiqətən də Ukrayna ərazisinə nüvə zərbəsi endirə bilər. Onun fikrincə, bu ehtimal artıb, lakin bunun genişmiqyaslı nüvə müharibəsinə çevrilməsi ehtimalı azdır. Lakin o, əmindir ki, Rusiyanın taktiki nüvə silahından istifadə etməsi Ukrayna hərbçilərini dayandırmayacaq və ya qorxutmayacaq, əksinə onları daha da qəzəbləndirəcək və motivasiya edəcək.

Rusiya prezidenti Vladimir Putinin nüvə müharibəsi ehtimalını ciddi şəkildə nəzərdən keçirdiyi barədə fikirləri Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin rəis müavini Vadim Skibitski də bildirib. "Ola bilsin ki, Rusiya Ukraynaya qarşı nüvə silahından istifadə etsin. Onlar bizim hücum fəaliyyətimizi dayandırmağa və dövlətimizi məhv etməyə çalışacaqlar", - o deyib.

Baxmayaraq ki, Putinin çıxışı ərəfəsində Rusiya Federasiyası Dövlət Dumasının deputatı Andrey Qurulev Rusiyanın nüvə zərbələri üçün hədəfin Ukrayna deyil, Almaniya və Böyük Britaniya olacağını bildirmişdi. Deputatın fikrincə, Ukraynaya qarşı nüvə silahından istifadə etmək "Moskva üçün maraqlı deyil", çünki onun fantaziyalarında rusların "burada yaşayacaqları da var".

### ABŞ nüvə müharibəsinin qarşısını ala bilərmi?

BMT Baş Assambleyası zamanı ABŞ prezidenti Cozef Bayden Rusiya prezidenti Vladimir Putinin nüvə silahının mümkün istifadəsi ilə bağlı hədəsinə cavab olaraq bir sıra mühüm açıqlamalar verib. Onun çıxışının elə ilk dəqiqələrində Rusiyaya qarşı birbaşa ittiham səslənib. İlk növbədə, bu, ABŞ-ın ritorikasının getdikcə daha az təmkinli olduğunu göstərir.

Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası ərəfəsində Amerika prezidenti müsahibəsində bildirib ki, Rusiyanın nüvə silahından istifadə edəcəyi təqdirdə dövlətlər əvvəlcədən konkret addımlar elan etməyəcəklər. O, bu planların açıqlanmayacağını açıq şəkildə ifadə edib və lakonik şəkildə vurğulayıb: "Mən Putinə bunu etməyi tövsiyə etməzdim".

Baydenin fikirlərindən belə çıxır ki, ABŞ nəinki nüvə zərbəsinə cavab verməyə hazırdır, hətta Rusiyanı xəbərdar etmək də istəyir. Əgər Putindən nüvə silahından istifadəyə hazırlıqla bağlı siqnallar olarsa, dialoqun hazırkı tonunu nəzərə alsaq, ehtimal etmək olar ki, ABŞ digər vasitəsilə mümkün nüvə zərbələrinin qarşısını almağa çalışacaq.

Başqa bir məqam - nüvə təhlükəsizliyindən danışan Bayden ABŞ-ın nüvə silahlarına nəzarət üçün kritik tədbirlərə əl atmağa hazır olduğunu bildirib. Burada ABŞ-la Rusiya arasında nüvə silahlarından istifadə etməmək haqqında yeni müqavilə də xatırlanır. Putin və Bayden 2021-ci ildə mövcud razılaşmanı uzadıblar, lakin 2026-cı ildə onun müddəti başa çatacaq və onun uzadılması artıq təmin edilmir. Əgər yeni sənəd üzərində iş indi başlasa, müqavilə bu administrasiya dövründə, yəni 2024-cü ildə ABŞ-da keçiriləcək prezident seçkilərinə qədər hazırlana bilər. Buna görə də amerikalılar bir neçə dəfə nüvə silahı ilə bağlı yeni sənədin hazırlanmasının zəruriliyini bəyan ediblər. Yəni Rusiyaya deyirlər ki, biz bu barədə danışmağa hazırıq. Ola bilsin ki, məhz bu səbəbdən amerikalılar hələ də Rusiyanı terrorizmin himayədarı kimi tanımayıblar. Lakin Vaşinqtonun artıq vurğuladığı kimi, Rusiya bu danışıqlara başlamaq təklifinə cavab verməyib. Əsas problem də budur.

### Səfərbərliyin məqsədi

Putinin qismən səfərbərlik qərarı hərbi deyil, daha çox siyasi addımdır. Rusiya lideri Ukraynadakı münaqişəyə son qoymağa çalışır. Səfərbərlik ABŞ və Avropaya bir siqnal idi ki, onlar Ukraynanı döyüşə təhrik etməyi dayandırmalıdırlar. Səfərbərliyin miqyasını isə Rusiyanın müdafiə naziri Sergey Şoyqu belə izah edib: "25 milyon ehtiyatda olan hərbçidən yalnız 300 mini çağırılacaq, onlardan yalnız 1%-i, yəni üç mini cəbhəyə göndəriləcək".

Üç min ehtiyatda olan hərbçi, şübhəsiz ki, döyüş meydanındakı vəziyyəti kökündən dəyişməyəcək. Bu o deməkdir ki, Rusiya liderinin səfərbərlik elanı ilə atdığı addım hərbidən daha çox siyasi xarakter daşıyır.

### Putin "bitirməyə" çalışır

Bu addımı başa düşmək üçün ona diqqət yetirmək lazımdır ki, Qərb Rusiyanın Ukraynanın bəzi bölgələrini tərk etmək qərarına qələbə çalan nidalarla reaksiya verib və Ukrayna Silahlı Qüvvələrini "hücum"a sövq edib.

Vladimir Putin bu gedişi belə şərh edib: "Bizim bütün addımlarımız suverenliyin möhkəmləndirilməsinə yönəlib. Bu, birincidir. İkincisi, ən əsası: biz hərbi əməliyyatlar baxımından heç nəyə başlamamışıq, ancaq başa çatdırmağa çalışırıq".

Bəli, Putin Rusiyanın suverenliyini gücləndirməklə hərbi əməliyyatlara son qoymağa çalışır. Lakin ABŞ, əksinə, bu münaqişəni uzatmaq istəyir. Çünki bununla onlar "strateji müstəqillik" axtarışında Almaniya-Fransa cütlüyünü cilovlamağı və Amerikanın Avropa üzərində hökmranlığını qoruyub saxlamağı hədəfləyirlər. Ona görə də əvvəldən məlum idi ki, Ukraynada münaqişənin əsas tərəfləri Rusiya və ABŞ-dır. Əslində Rusiyanın müdafiə naziri Sergey Şoyqu da bu fakta işarə edərək, qismən səfərbərliyin miqyasını açıqlayıb: "Bu gün biz təkcə Ukrayna və Ukrayna ordusu ilə deyil, kollektiv Qərblə müharibə vəziyyətindəyik".

Vladimir Putinin bəyanatlarından biz başa düşürük ki, Rusiyanın suverenliyini möhkəmləndirməyin yolu "Ukrayna Silahlı Qüvvələrindən və neonasist batalyonlarından" azad edilmiş Donetsk və Luqanskın referendum yolu ilə birləşdirməkdən keçir. Beləliklə, hər iki "xalq respublikası" sentyabrın 23-dən 27-nə qədər Rusiyaya birləşmək üçün referendum keçirəcək. Digər tərəfdən, ABŞ və Aİ artıq referendumları "saxta" adlandırıb və onların nəticələrini tanımayacaqlarını bildiriblər. Putin isə referendumların keçirilməsi üçün təhlükəsiz şəraitin yaradılacağını, insanların öz iradələrini ifadə edə bilmələri üçün hər şeyi edəcəklərini deyib.

### Üç məsələ üzrə qərar

"Qismən səfərbərlik" elanı əslində Donetsk və Luqanskın Rusiyaya birləşməsi ilə bağlı referendumun keçirilməsinə zəmanət vermək cəhdi kimi görünür...

Putin bu addımı ilə üç məsələdə qətiyyətini ortaya qoyub.

- Donetsk və Luqansk "Xalq Respublikaları"nda referendum keçiriləcək.

- Donetsk və Luqansk Rusiyaya birləşəcək.

- Ukraynanın Rusiya ərazilərinə çevriləcək Donetsk və Luqanska hücum edəcəyi təqdirdə Rusiya hərbi əməliyyatlarını artıracaq.

### İki xəbərdarlıq, bir siqnal

Rusiya Federasiyasının prezidenti qismən səfərbərlik elan etməklə həm də iki xəbərdarlıq edib. Qərb koalisiyasına isə bir siqnal göndərib: "Əgər bizim ərazi bütövlüyümüz təhlükə altına düşərsə, Rusiya bütün mümkün vasitələrdən istifadə edəcək. Bu, blef deyil".

**Vladimir Putin:**

- Ukraynanı atəşə tutan və hərbi münaqişəni uzatmaq üçün bu ölkəyə silah tədarükünü artıran ABŞ-a xəbərdarlıq edir;

- Ukrayna böhranının ən fəal təhrikçisi kimi çıxış edən Böyük Britaniyaya xəbərdarlıq edir;

- Almaniya və Fransaya belə siqnal verir: hər iki ölkə sərt qış başlamamış Ukraynanı sülh danışıqları masasına oturmağa məcbur etməlidir.

Bir sözlə, Rusiya lideri Ukrayna böhranını hərbi məqsədlərə çatdıqdan sonra həll etməyə çalışır, bunda da suverenliyin möhkəmləndirilməsinin yolunu görür və münaqişəni uzatmaq istəyənlərə xəbərdarlıq edir: "O zaman daha böyük qarşıdurma olacaq".

Britaniya mətbuatı Donbass, Zaporojye və Xerson vilayətlərində Rusiyaya birləşmə ilə bağlı referendumların keçirilməsini işıqlandırmağa başlayıb. Nəşrlər açıq şəkildə anti-Rusiya xarakteri məlumatlar dərc edir. Məqalə müəllifləri hesab edirlər ki, beş günlük səsvermə prosesi müstəqil müşahidəçilərin iştirakı olmadan keçiriləcək. Bu isə nəticələrin saxtalaşdırılması üçün kifayət qədər imkanlar yaradacaq. Əgər Moskva bu əraziləri rəsmi olaraq Ukraynaya birləşdirsə, o zaman onlara hər hansı hücum Rusiyanın özünə qarşı hücum kimi şərh ediləbilər.

Putinin bu tərtibi ABŞ və onun avropalı müttəfiqlərini düşünməyə vadar edir, ya Rusiya həqiqətən bütün dünya güclərinə son savaşını elan edir, ya da bütün bunlar Moskvanın boş ritorikasıdır. Onu da xüsusi vurğulayaq ki, Rusiya nüvə dövlətidir, amma bütün güclərə əzələ nümayiş etdirəcək dövlət də deyil. Bəs, bütün baş verənlər nəyin göstəricisidir?

***V.VƏLİYEV***

# “Azərbaycan tarixinin 44 günlük şanlı zəfər salnaməsinin qəhrəmanları”

***Sentyabrın 23-də Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının və partiyanın Sumqayıt şəhər təşkilatının birgə təşəbbüsü ilə 27 sentyabr - Anım Gününə həsr olunmuş ”Azərbaycan tarixinin 44 günlük şanlı zəfər salnaməsinin qəhrəmanları” mövzusunda tədbir keçirilib.***



## Bu mövzuda tədbir keçirilib

Əvvəlcə tədbir iştirakçıları Sumqayıt Şəhidlər xiyabanını ziyarət ediblər.

YAP Sumqayıt şəhər təşkilatında keçirilən tədbirdə əvvəlcə Dövlət Himni səsləndirilib. Sonra Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri giriş sözü ilə açan YAP Sumqayıt şəhər təşkilatının sədri, partiyanın İdarə Heyətinin üzvü Ramiz Hüseynov 44 günlük Vətən müharibəsinin tarixi əhəmiyyətindən danışıb. O qeyd edib ki, bu müharibə ordumuzun, qəhrəman hərbçilərimizin gücünü və peşəkarlığını nümayiş etdirdi.





YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə isə bildirib ki, hazırda Azərbaycan inkişafının ən möhtəşəm dövrünü yaşayır. O qeyd edib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz Qarabağ Zəfəri nəticəsində özünün güclü və qüdrətli dövlət olduğunu bütün dünyaya nümayiş etdirdi. A.Rəhimzadənin sözlərinə görə, bu müharibə xalqımızın öz Vətənini müdafiə etmək əzmində olduğunu göstərdi: ”Qələbənin qazanılmasında əsas amillər sırasında ölkəmizin iqtisadi və hərbi gücü xüsusi vurğulanmalıdır. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Qazanılan tarixi Zəfər məhz bu siyasətin məntiqi nəticəsidir. Torpaqlarımızın azadlığı uğrunda döyüşən oğullarımız böyük qəhrəmanlıq göstərdilər. Bu yolda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi xalqımız tərəfindən daim uca tutulacaq”.









Çıxış edən Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Sumqayıt şəhər bölməsinin sədri, şəhid atası Sovet Şükürov Azərbaycan xalqının böyük xalq olduğunu və Vətən müharibəsində qazanılan şanlı qələbənin bu faktı bir daha təsdiqlədiyini deyib.

Şəhid Taleh Kərimovun həyat yoldaşı Nəzakət İsmayılova isə bildirib ki, Qarabağ əzəli və əbədi Azərbaycan torpağıdır: ”Mən torpaqlarımızın işğaldan azad olunması yolundakı mübarizədə canını qurban vermiş şəhid həyat yoldaşımla fəxr edirəm”.

Birinci və İkinci Qarabağ müharibəsinin iştirakçısı, qazi, polkovnik-leytenant Zahir Həsənov keçdiyi döyüş yolundan danışıb, ordumuzun qəhrəmanlığından bəhs edib.

Çıxış edən Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova bildirib ki, 27 sentyabr Anım Günü olmaqla yanaşı, həm də Zəfər yolunun ilk addımı idi. Onun sözlərinə görə, vaxtilə ermənilər belə bir mif yaratmışdılar ki, erməni ordusuna qalib gəlmək olmaz. Ancaq Azərbaycan əsgəri öz igidliyi, cəsarəti, döyüş qabiliyyəti ilə bu mifi qısa zamanda dağıtdı. ”Əlbəttə ki, bu 44 gün qısa bir zaman olsa da, Azərbaycanın şanlı tarixini yazdı. XXI əsrin müharibəsini aparan Azərbaycan hərbi gücü, qüdrəti ilə dünyaya səs saldı”, - deyə komitə sədri vurğulayıb.

Milli Məclisin deputatı Müşfiq Məmmədli isə çıxışında bildirib ki, 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi ilə dövlətimizin qətiyyəti, ordumuzun gücü, Ali Baş Komandanımızın əzəmətli sərkərdəliyi, xalqımızın birliyi nəticəsində işğala son qoyuldu. Onun sözlərinə görə, biz torpaqlarımızın erməni işğalından azad olunması sevincini məhz Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə qəhrəman əsgərlərimizin, döyüşçülərimizin sayəsində yaşayırıq: ”Məhz onların qanı, canı bahasına, misilsiz vətənpərvərlik və döyüş ruhu sayəsində bu qələbələri qeyd edirik. Biz şəhidlərimizin ruhu qarşısında baş əyirik, qazilərə Allahdan şəfa diləyirik, qəhrəman əsgər və zabitlərimizlə, döyüşlərdə iştirak edən hər bir həmvətənimizlə qürur duyuruq. Vətən onlarla sonsuz dərəcədə fəxr edir”.

Çıxış edən Milli Məclisin deputatı Emin Hacıyev bildirib ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin ailələrinə, qazilərə və müharibə veteranlarına diqqət və qayğı dövlət siyasətinin mühüm prioritetidir. Onun sözlərinə görə, Azərbaycanda Qarabağ müharibəsi əlillərinə, veteranlarına və şəhid ailələrinə göstərilən yüksək dövlət qayğısının əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. ”Şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə mütəmadi olaraq yeni mənzillər, avtomobillər verilir. Onların müalicəsi üçün reabilitasiya mərkəzləri açılır və zərurət yarandıqda müalicə olunmaq üçün xarici ölkələrə göndərilirlər. Bu kateqoriyadan olan insanlara Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən də yüksək diqqət və qayğı göstərilir. Bir sözlə, dövlətimizin Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin ailələrinə, qazilərə və müharibə veteranlarına göstərdiyi qayğı ilbəil artmaqdadır”, - deyə deputat söyləyib.

Tədbirdə çıxış edən Əməkdar müəllim Ofelya Babayeva Azərbaycanda gənc nəslin yüksək vətənpərvərlik ruhunda yetişdiyini bildirib. Onun fikrincə, 44 günlük Vətən müharibəsində əsasən gənclərdən ibarət olan hərbçilərimizin qəhrəmanlığı və şücaəti bunu sübut edir.

Vətən müharibəsi qazisi, polkovnik-leytenat Ehtiram Məmmədov da çıxışında müharibədə hərbçilərimizin qəhrəmanlığından, onların Vətənə sevgisindən bəhs edib.




# Azərbaycanda internetin sürəti niyə zəifdir?

***Britaniyalı mütəxəssislər dünyanın 200 ölkəsində internetin sürətini araşdırıblar. Ölkələri bu göstərici üzrə sıralamaq üçün mütəxəssislər 5 gigabaytlıq HD videonu yükləmək üçün lazım olan vaxtı hesablayıb. Sinqapur və Skandinaviya ölkələri filmləri HD formatda yükləmək üçün ən az vaxt tələb edən ölkələr sırasındadır. Belə ki, Sinqapurda bu əməliyyat cəmi 11 dəqiqə 18 saniyə çəkib. Buna görə də, burada yükləmə sürəti 60,4 Mbps olduğunu öyrəniblər. İnternetin ən yavaş olduğu ölkə olan Yəməndə yükləmə sürəti 0,3 Mbit/s-dən çox azdır - film üçün demək olar ki, dörd saat gözləməli olublar.***



***İsveç, Danimarka və Norveç də reytinqdə ön sıralardadır. Burada nəzarət videosunu yükləmək 14-17 dəqiqə çəkib. İlk 10-luqda Rumıniya, Belçika, Hollandiya, Lüksemburq və Macarıstan yer alıb.***

ARAŞDIRMA

Araşdırma Rusiyada da aparılıb və ölkə 47-ci sırada olub. Burada mütəxəssislər yalnız 50 dəqiqədən sonra yükləmənin bitməsini gözlədilər. Avstraliya, Yunanıstan, İsrail, Türkiyə, Çin və Misirdən daha yavaş videolar yüklənir. Reytinqin sonunda Yəmənlə yanaşı Suriya, Mavritaniya, Qvineya, Somali və Türkmənistan qərarlaşıb. Sürətli internet iqtisadiyyat üçün həyati əhəmiyyət kəsb edir və bu gün, COVID-19 dövründə insanlara işləməyə, biznes qurmağa və səmərəli ünsiyyət qurmağa imkan verən əsas amillərdən biridir.

Eyni zamanda, ötən ay Azərbaycan sabit genişzolaqlı internetin orta sürətinə görə dünyada 122-ci yerdə qərarlaşıb ki, bu da iyul ayı ilə müqayisədə bir pillə azdır. Belə ki, avqust ayında ölkə üzrə sabit genişzolaqlı internetin orta sürəti 22,15 MB/s təşkil edib.

Ümumilikdə stasionar genişzolaqlı internetin sürəti ilə bağlı dünyanın 182 ölkəsində araşdırma aparılıb. Birinci yerdə Sinqapur (219,01 MB/s), sonuncu yerdə isə Əfqanıstan (1,9 MB/s) qərarlaşıb. Mobil data reytinqində Norveç 122,77 MB/s ilə birinci, Kuba isə 4,15 MB/s ilə 140-cı yerdədir.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, ölkə ərazisində internetin sürətinin zəif olması ilə bağlı müraciətlər kütləvi xarakter daşımır. Fərdi qaydada texniki nasazlığın baş verməsi hallarda internetin zəif olması mümkündür. Bu hallarda da abunəçilərin müraciəti əsasında internet xidmətində yaranan texniki nasazlıqlar nazirliyin müvafiq qurumları tərəfindən dərhal nəzarətə götürülərək aradan qaldırılır.

İnternetin keyfiyyətsizliyini aradan qaldırmaq üçün hansısa tədbirlər görüləcək?

Müasir texnologiyaların tətbiqi istiqamətində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin həyata keçirdiyi "Onlayn Azərbaycan" layihəsi çərçivəsində "Aztelekom" MMC tərəfindən ölkənin müxtəlif bölgələrində yüksəksürətli internetin təmin edilməsi üçün müvafiq işlər planlı şəkildə davam etdirilir.

Növbəti olaraq bir neçə gün öncə Quba rayonunun Vladimirovka və Xınalıq kəndlərində sürətli və kəsintisiz internet xidməti göstərən fiber-optik GPON (Gigabit Passive Optical Networks) şəbəkəsinin tikintisi ilə əlaqədar zəruri avadanlıqlar montaj olunaraq istifadəyə verilib. Vladimirovka kəndində 780, Xınalıq kəndində isə 537 ev təsərrüfatı yüksək sürətli internetlə tam əhatə edilib.



Bundan əlavə, Quba şəhəri ərazisində 1700 abunəlik şəbəkə tikilib. Hazırda 600 abunəçi internet xidmətindən istifadə edir. Qəçrəş kəndində aparılan tikinti işlərinin isə yaxın 2 ay ərzində başa çatdırılması nəzərdə tutulur. Yeni GPON texnologiyasının tətbiqi ilə abunəçilərə daha yüksək sürətli (30 mbit/s-dən 100 mbit/s-dək) internet paketləri təklif olunur.

Qeyd edək ki, genişzolaqlı xidmətlərə vətəndaşların əlçatanlılığının tam təmin olunması işləri ölkə üzrə 2024-cü ildə başa çatdırılacaq.

İT və innovasiya sahəsində müxtəlif layihələrin təsisçisi Cəmil Hüseynzadənin sözlərinə görə, internetin zəif olmasına əsas səbəb bir çox yerlərdə hələ də müasir texnologiyaların tətbiqinin ləngiməsidir. Bir çox yerlərdə internetin verilişində fiber optik kabellərdən istifadə olunmur. Biz özümüz iştirak etdiyimiz layihələrin əksəriyyətində regionda yaşayan şəxslər internetlə bağlı şikayətçi olur və layihələrə qoşulmaqda çətinlik çəkirlər. Bəzən elə hal olub ki, insanlar evdəki vayfayları ilə internetə qoşula bilmədikləri üçün biz onlar üçün mobil internet paketi almalı olmuşuq.

İnternetin sürəti cihazların modelindən çox az asılıdır. Ölkənin əksər hissəsində internetin verilişi köhnəlmiş və artıq zəifləmiş texnologiya ilə həyata keçirilir.

Daha öncə qeyd etdiyim kimi internetin keyfiyyəti cihaz modellərindən daha az asılıdır. Əgər qəbul edilən dalğalar internet istifadəsi üçün kifayət etmirsə, güclü cihazların da bir faydası olmayacaq. Kompüter ilə internetə qoşulan şəxslər LAN kabel vasitəsi ilə şəbəkəyə qoşulsalar internet daha sürətli olar və ev daxilində modemi düzgün yerdə yerləşdirmək lazımdır. Bəzən giriş qapısının yanına modem qoyurlar, bu tam doğru deyil, çünki zəif dalğalar divarları keçərkən daha da zəifləyir. Bir şeyi də qeyd edim ki, kompüterlər arasında HP modelli kompüterlər internetə zəif qoşulması ilə populyardır.

Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz vəziyyəti belə izah edir ki, internet bazarının 65 faizinə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (NRYTN) tabeliyində olan qurumlar nəzarət edir. Bunlar "Baktelecom", "Aztelekom", "Azeurotel", "AzDataCom" və "Azercell"dir. Ekspert əlavə edir ki, bu qurumların satdığı internet kifayət qədər bahadır: "NRYTN haqsız rəqabət aparır. Özəl provayderlər sürətli internet xidməti çəkmək üçün dövlətə məxsus rabitə resurslardan istifadə edə bilmirlər. NRYTN tabeliyində olan dövlət provaydreləri isə bu resurslardan sərbəst istifadə edirlər".

Ekspert deyir ki, özəl provayderlərin qiymət endirimine NRYTN tabeliyində olan dövlət provayderləri mane olur: "İnternet bazarının 65 faizinə nəzarət edən dövlət provayderləri "DeltaTelecom"un 70 faiz qiymət endirimini boykot edib. Müşahidələr və monitorinqlər göstərir ki provayderlər interneti topdan alanda öz müştərilərinin sayına və tələbatına uyğun həcmdə deyil, daha az trafik alırlar".

Düşünürəm ki, həm hökumət tərəfindən, həm də cəmiyyət tərəfindən atılan addımlar gücləndirilməlidir. Hökumət keyfiyyətsiz internetlə bağlı cəza tədbirlərini artırsa, daha yaxşı olar. Bəlli standartlar müəyyən olunmalı, onları pozan provayderlərə qarşı sərt tədbirlər görülməlidir.

***Havar Şəfiyeva***



***İşgüzar ünsiyyətin tənzimlənməsi nitqə xüsusi diqqət yetirməkdə özünü göstərir. Bura daxildir: çıxış, etiket, linqvistik davranış normaları, salamlaşma, xahiş, minnətdarlıq və s.***

# Uğurlu iş fəaliyyətində nitqin rolu

İşgüzar ünsiyyət kursları danışıqlar, yazışmalar zamanı nitqimizə və davranışımıza nəzarət etməyi öyrədir. Özünü təqdim etmək, inandırmaq, etimadı ruhlandırmaq, öz mövqeyini ağlabatan və münaqişəsiz müdafiə etmək, nəzakətli və düzgün davranış, özünə inamı qorumaq bacarıqları və s. bütün bunlar hər bir insan üçün ən önəmli keyfiyyətlərdir desək yanılmarıq.

Təbiətcə introvert, təmas qurmaq çətin olan, öz nöqteyi-nəzərini sərt şəkildə yerləşdirən, bəzən ətrafını özündən uzaqlaşdıran insanlar üçün natiqliyi (ritorika) başa düşmək daha çox faydalıdır. Ünsiyyətdə xoş və bacarıqlı bir insana çevrilməklə, yalnız yeni müştərilər və iş ortaqları deyil, həm də yeni dostlar, etibar və hörmət qazandırır.

Ünsiyyət tərzi - vəziyyətə münasibəti əks etdirən və söhbətə müəyyən emosional rəng verməyə imkan verən kommunikativ davranış formasıdır. Ünsiyyət tərzi bizə danışıq tonu və çərçivəmizi təyin etməyə imkan verir.

Sözsüz ki, hansı sahədə olmağımızdan asılı olmayaraq biz öz məhsul və xidmətlərimizi və ya bilik və bacarıqlarımızı satmağa çalışırıq. "Əgər uğurlu olmaq istəyirsənsə mütləq ünsiyyət qurmağı bacarmalısan" deyimi əbəs yerə deyilməyib. Müasir dövrdə ünsiyyətsiz biznesi, biznesi isə ünsiyyətsiz təsəvvür etmək çox çətindir. Ünsiyyət biznesin ayrılmaz tərkib hissəsidir.

## Bəs ünsiyyət qurarkən biz nəyə diqqət etməliyik?





**Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin Analitik təhlil və proqramlaşdırma şöbəsinin müdiri Şahlar Məmmədov** (Göytürk) SİA-ya açıqlamasında uğurlu iş fəaliyyətində ünsiyyətin rolundan danışıb.

Qədim Yunanıstanda natiqlik sənətinin inkişafına güclü təsir göstərmiş Solon qanunlarına görə hər bir afinalı məhkəmədə öz hüququnu müdafiə etməyi bacarmalı idi. Belə bir tələb əsasında afinalılar hüquqla bağlı biliklərə yiyələnir, həm də öz hüquqlarını müdafiə etmək üçün aydın, təsirli, sübutlu, rabitəli danışmağa səy göstərirdilər. Demosfen öz dövrünün ən görkəmli loqoqraflarından, natiqlərindən olmuşdur. Nitqi qüsurlu olan - q səsini düzgün tələffüz edə bilməyən, danışarkən yersiz əl-qol atan, sağ çiynini tez-tez çəkən Demosfen sözləri daha aydın ifadə edə bilmək üçün ağzına xırda daşlar alaraq dəniz kənarında nitq söyləyər, danışarkən çiynini atmağı tərgitmək üçün tavandan asılı cidanın (nizənin) altında durarmış. Səsini inkişaf etdirmək məqsədilə ucadan qışqırar, öz səsi ilə dalğaların səsini boğmağa çalışarmış. Uzunmüddətli məşqlər Demosfeni natiqlik sənətinin zirvəsinə yüksəltmişdir. Buradan aydın olur ki, gözəl danışığa yiyələnmə sonradan qazanılır və hər kəsin özündən asılıdır. Fəsih nitqi şərtləndirən bir sıra tələblər vardır ki, bunlar nitqin normativliyidir: aydınlıq, düzgünlük, sadəlik, dəqiqlik, yığcamlıq, zənginlik, təmizlik, münasiblik, ifadəlilik, orijinallıq, səmimilik və s.

Müşahidələr göstərir ki, nitqi fəsih olan şəxslərin həyatdan məmnunluq hissi daha yüksək olur. İnsanın nitqi onun iç dünyasından xəbər verir. Adamları tanımaq üçün hər şeydən əvvəl, ünsiyyətə girmək lazımdır. Sokratın bu fikri bütün dünyada məşhurdur: "Ey insan, danış səni tanıyım". Demək istəyirəm ki, tarix boyu nitqə, onun gözəlliyinə xüsusi diqqət yetirilib. Qeyd etdiyim bu məqamlar "Ana dilimizi mükəmməl bilməli və bu dildə gözəl danışmalıyıq" fikrinə tam aydınlıq gətirir. Söhbət təkcə dil təəssübkeşliyindən getmir, həm də gözəl nitqin insanda formalaşdırdığı müsbət imicdən gedir. Unutmayaq ki, məzmunlu, aydın, yığcam, təsirli nitqə malik olan insanlar cəmiyyət tərəfindən həmişə yüksək qiymətləndirilmişdir.

Bu mövzu ilə birbaşa əlaqəsi olduğu üçün yenə yunan fəlsəfəsinə istinad etmək istəyirəm. Niyə yunanlar arasında yaxşı natiqlər çox yetişirdi ? Çünki onlar insanların qarşısında səmərəli çıxış etmək üçün üç məsələyə xüsusi diqqət yetirirdilər: etos, pafos, loqos. Qeyd olunur ki, etos natiqin inandığı və müdafiə etməyə hazır olduğu mövzudur. Pafos natiqin çıxışın mövzusuna münasibətdə güclü hissdir. Loqos isə öz düşüncələrini ifadə etmək üçün seçilmiş sözlərdir.

Düzgün cümlə qurmaq məsələsi oxucuya adi görünə bilər. Tanınmış yazıçı, şair Seyran Səxavətin məşhur bir fikri yadıma düşür: "Cümlə qurmaq dövlət qurmaq qədər çətindir". Burada cümlə qurmaq dedikdə, söhbət təkcə qrammatik quruluşdan getmir, ümumən nitqə verilən akademik tələblər nəzərdə tutulur.

Yuxarıda imic məsələsinə toxundum. Bu, şəxsin lider kimi formalaşmasında, cəmiyyət tərəfindən qəbul olunmasında olduqca vacib məqamdır. Bu bacarıq öncə imiclə, nitq imici ilə də səciyyələnir. İmic şəxsiyyətin obrazıdır. İmic üçün mühüm komponentlər bunlardır: nitq, əxlaq, hərəkət tərzi, davranış, şəxsi əlamət, xarici sima, görünüş və s.

İmic əxlaqla sıx bağlıdır. Davranış, rəftar, manera, yeni, əda, xasiyyət, tərz belə imici xarakterizə edir. Pozitiv imicin formalaşmasında geyimin rolu böyükdür. İnsanın geyimi, paltarı işgüzar tələblərə uyğun seçilməlidir. Geyim harmoniya yaratmalıdır.

Yaxşı haldır ki, ali məktəblərimizdə İşgüzar və akademik kommunikasiyalar fənni tələbələrimizə tədris olunur. Yuxarıda sadaladığım məqamlar tələbələrimizdə praktik dil vərdişlərinin mənimsənilməsinə kömək etməklə yanaşı, onlarda liderlik qabiliyyəti aşılayır. Təəssüf ki, tələbələrimiz arzuolunan səviyyədə bu tələbləri yerinə yetirmirlər. Müasir dövrdə auditoriya qarşısında çıxış etmək işgüzar adam üçün ən vacib bacarıqlardan biridir. Lakin kütlə qarşısında çıxış etməzdən əvvəl işgüzar insanların özlərinə verdiyi suallar adətən eyni olur: "psixoloji cəhətdən hazır deyiləm", "birdən fikirlərimi düzgün çatdıra bilmərəm", "utanıram", "kamera qarşısında özümü itirirəm", "filan sözləri düzgün tələffüz edə bilmirəm" kimi səbəbləri əsas gətirərək bir çox insan auditoriya qarşısında çıxmağa sanki ehtiyat edir. Lakin bu çəkingənlik işgüzar həyatda insanların irəli çıxmasına, uğurlu karyera qazanmasına mane olur.

Deməli, karyera qazanmağın ən gözəl yollarından biri, məhz gözəl nitq qabiliyyətinə malik olmaqdan keçir. İşgüzar adam özünü geniş ünsiyyətdən təcrid etməməli, daha böyük uğur əldə etmək üçün mütləq auditoriya qarşısına çıxmalıdır.

Əvvəla, istənilən nəticəni əldə etmək üçün öncədən hazırlaşmaq lazımdır. Sərbəst danışmaq üçün əsas diqqəti sözlərə yox, ifadə edəcəyimiz fikirlərə yönəltməliyik. Üzündən oxumaq natiq üçün arzuolunmaz hesab edilir və bu dinləyənlər tərəfindən xoş qarşılanmır. Çıxış zamanı parazit söz və səsləri unutmaq lazımdır. Məsələn, nitq zamanı "ıııı", "eee" kimi səslər çıxarmaq, əcnəbi sözlərdən yersiz istifadə etmək olmaz. Bu kimi xətalar nitqdə söz bazasının azlığından, dili mükəmməl bilməməkdən xəbər verir.

Nitqdə deyilənlərə məna verən intonasiya, natiqin səsinin qüvvəsi olduqca önəmlidir. Yəni işgüzar adam nə çox ucadan, nə də astadan danışmalıdır. Çünki bu məqamlar hər iki halda dinləyicidə narahatlıq yaradır.

Auditoriya qarşısında çıxış etmək üçün natiq intonasiya, diksiya, artikulyasiya, temp, jest kimi nitq texnikasına bələd olmalıdır. Danışıq üçün düzgün nəfəsalma çox önəmlidir. Çünki diafraqma ilə düzgün nəfəs aldıqda səs sinənin dərinliklərindən gələrək gözəl səslənir. Lakin insanların böyük əksəriyyəti dayaz nəfəsdən istifadə edir və bu da səs tellərində gərginlik yaradır, yorğunluğa gətirib çıxarır. Bir sözlə, düzgün danışıq üçün nitq texnikasına əməl etmək lazımdır.

Təcrübə göstərir ki, fəsih nitqə yiyələnmədə güzgü qarşısında çıxış, səsin yazılması və dinlənilməsi daha yaxşı nəticə verir. Bu zaman buraxılan səhvləri görmək imkanı yaranır, səs tonu dəqiqləşdirilir, üz ifadəsinə, duruşa və əl-qol hərəkətlərinə diqqət yetirilir. Natiq auditoriyanı idarə edə bilmirsə, onun fikrinə diqqət yetirilmirsə, səs-küy yaranırsa, yaxud dinləyicilərdə mürgüləmə baş verirsə, deməli problem natiqin çıxışının düzgün qurulmamasındadır. Peşəkar natiqin çıxışı belə 20 dəqiqədən çox çəkdikdə dinləyicidə narahatlıq yaradır. Bu halları aradan qaldırmaq üçün fikrə genişlik, sözə yığcamlıq vermək, nitq mədəniyyətinin qaydalarına riayət etmək lazımdır. Yenə də o fikrə gəlirəm ki, şəxsiyyətin liderlik səviyyəsinə çatmasında nitq mədəniyyətinin müstəsna rolu vardır. İdarəetmə və işgüzar sahədə daha böyük uğur əldə etmək üçün peşə bilikləri ilə kifayətlənmək olmaz.

"Əgər yüksək səviyyədə nitq qabliyyətinə maliksənsə, deməli fikrini doğru çatdıracaq və insanları fikirlərinlə öz ardınca aparmağı bacaracaqsan. Və yaxud da gördüyün işləri danışığınla-nitqinlə doğru şəkildə təqdim edəcək və iş fəaliyyətində yetərincə uğur əldə edə biləcəksən". Bu sözləri **şair, publisist Aysel Nəsirzadə** deyib.

Ümumiyyətlə tarixə nəzər salsaq qədim dövrdə natiq əsl mənada cəmiyyətin siyasi xadimi olmuş, dövlət quruluşunda, ictimai siyasi işlərində, mədəni və ailə məişət məsələlərində fəal iştirak etmişdir.

ARAŞDIRMA





Hətta o dövrün tanınmış natiqlərindən afinalı Demosfen haqqında Makedoniya hökmdarı Flippin belə bir fikrini oxumuşdum: "Demosfenin nitqləri mənə Afina qoşunlarından daha çox zərbə vurur. Əgər mən o iclasda olub Demosfenin güclü nitqlərini dinləsəm özüm də özümə müharibə olunmasına səs verərdim".

## Nitqimizi gözəl edən nədir?

Ağlın göstəricisi dildir. Həzrəti Əlinin belə bir fikri var "Hər bir adam öz dilinin altında gizlənir". İnsan danışığı ilə insanlarda özü haqqında təsəvvür yarada bilir. Nitqimizi gözəl etmək üçün təbii ki, bir çox metodlar, üsullar var, ancaq elmi izahdan çox sadə dillə bir neçə üsul deyə bilərəm. Ən birincisi məqsədli olmaq. Çox mütaliə etmək əsas da klassik ədəbiyyata müraciət etmək lazımdır. Çünki zəngin cümlələrə əsasən klassik ədəbiyyat nümunələrində rast gəlmək olar. Oxumaq, oxuyarkən özün özünü dinləmək, dərk etmək ən vacib şərtdir. Yüksək səslə şeir oxumaq, tələffüzünün anlaşılmazlığını düzəltmək üçün çoxlu məşqlər etmək, söz ehtiyatını artırmaq, alınma sözlərdən az istifadə etmək nitqimizi daha gözəl edəcək.

Nə qədər ağıllı olursan ol, nə qədər yüksək potensiala malik olursan ol gördüyün işi təqdim edə bilmirsənsə uğursuzluğa düçar olmağa məhkumsan. Nitq bacarığı deyəndə çox danışmaq başa düşülməmlidir. Nitq bacarığı fikirlərini az və öz şəkildə, dolğun cümlələrlə çatdırma qabliyyətidir.

Bir insan auditoriyanın diqqətini necə çəkmək üçün ilk öncə auditoriya ilə vizual tanış olmalı, müraciət formasını təyin etməli, necə xitab edəcəyini bilməli, göz təmasından qaçınmamalı, səsinin tonundan jestlərinə qədər diqqətli olmalı və ən əsası özgüvənli olmalıdır. Haqqında danışacağı mövzuya hakim olub ilk öncə danışacağı mövzuya özü inanaraq və inancla enerjini, o duyğunu ötürmə bacarığı ilə auditoriyanı ələ ala bilər. Bir də mütləq halda quracağı cümlələrin zənginliyinə fikir verməlidir, əks halda qırıq-qırıq cümlələr, eeee, ıııı, hmm - söhbət əsnasında qarşı tərəfi - auditoriyanın fikrini mövzudan yayındıracaq.



**"Qiraət Mərkəzi" MMC-nin rəhbəri, nitq təlimçisi Sadəgül Balaoğlanova** isə qeyd edir.

İşimizdə o zaman uğurlu oluruq ki, ilk növbədə onu sevərək görürük, bu üzrə yetəri qədər bilikli və təcrübəliyik. Sonra isə sırada onu təqdim edə bilmək bacarığımız gəlir ki, bu da birbaşa nitqimizlə bağlı prosesdir. İstənilən iş sahəsində alıcı - satıcı münasibəti var ki, işi görən nəyisə ötürür, qarşı tərəf isə bunu qəbul edir və bu işi dünya üzrə tək biz etmirik. Bunu nəzərə alaraq bizim diqqət etməli olduğumuz birbaşa məqam onu qarşı tərəfə necə ötürməli olduğumuzdur. Biz uğurlu olmaq üçün bu fəaliyyəti həm fərqli, həm doğru məlumatlarla etməli və həm də qarşı tərəfi inandırmağı bacarmalıyıq. Bütün bunları bir yerdə bacarsaq, o zaman qarşı tərəf seçim haqqını bizdən tərəfə istifadə edəcəkdir. Biz nəzərə almalıyıq ki, iş prosesində kütlə psixologiyası ilə qarşı - qarşıyayıq. Belə olduğu halda nitqimiz insanlarla olan münasibəti tənzimləmək üçün əsas vasitəyə çevrilir. Çünki iş prosesində istər kollektivlə münasibət, istərsə də müştərilərlə ünsiyyət zamanı hər cür insanla qarşılaşırıq. Hər kəsi eyni nitqlə qane etmək mümkün deyil. Bu da o deməkdir ki, sənin nitqin insanlara uyğunlaşmağa məcburdur. Bunu bacardığımız zaman insanları işimizlə bağlı məmnun etmiş ola bilərik. Bütün bu nümunələrdən belə bir nəticəyə gəlmək olar ki, aldığımız reaksiyalar birbaşa necə danışdığımızla bağlıdır. Eyni fikri fərqli intonasiya, fərqli mimikalar və ya fərqli ifadələrlə təqdim edə bilmək bizə xal qazandıracaqdır.



Nitqimiz o zaman gözəl olur ki, bizim geniş söz bazamız olur və eyni fikirləri təkrarən işlədib qulaq yormuruq. Nitqimizdə varvarizmlər, məhəlli sözlər, jarqonlar və s. işlətmirik; danışan zaman nitqimizi nümunələrlə zəngin edirik; mövzudan uzaqlaşmadan, onu uzatmadan danışa bilirik; dil qaydalarına riayət edirik; nitqin rabitəliliyini pozmuruq; aydın və sadə danışıq və s. Bu siyahını bir qədər də uzatmaq olar amma əsas məsələ bunları sıralamaqda deyil. Çünki düzgün nitqə sahib olmaq üçün öncəliklə bizim nitqimizdəki yanlışlar nələrdirsə, onları təyin etməyi bacarmalıyıq. Bu da "fərqindəyik" anlayışını meydana çıxarır. Nitqimizin nə qədər fərqindəyik? Danışarkən özümüzü dinləyə bilirikmi? Bu alışqanlığı yaratdıqdan sonra yuxarıda sadaladığım başlıqlar üzrə nitqimizi nəzərdən keçirib, üzərində işləyə bilərik. Eyni zamanda bədən dili, jest və mimikalarımız da nitqimizlə bir- birini tamamlamalıdır. Əks halda dahi şairimiz Nizami Gəncəvinin də dediyi kimi - Söz gözəl olursa-olsun nə qədər, Pis əda o sözü tamam məhv edər.

Əlbəttə önəmlidir. Əgər bir iş, proses doğru təsvir edilə bilmirsə, o necə doğru tətbiq edə bilər?, Əbu Turxanın gözəl aforizmi var - Böyük fəlsəfələr ancaq böyük dillərin çanağında yoğrulub yapıla bilər. Sən çox faydalı, bacarıqlı, keyfiyyətli bir iş görə bilərsən, amma o iş haqqında o qədər uğursuz nitqlə çıxış edərsən ki, gördüyün iş düşüncələrdə sıfıra bərabər olar. Eyni zamanda bunun əksi belə ola bilər. Sənin nitqin gördüyün işi o qədər ucaldar və inandırıcı edər ki, insanlar həqiqəti görmədən bunu qəbul edər. Bu da o deməkdir ki, nitq nəinki önəmli məsələlərdən biri elə ən birincisidir.

Auditoriyanın diqqətini çəkən dəyişən və dəyişməz olan amillər vardır.

Dəyişən amilləri nəzərdə tutduqda auditoriya özü də sabit deyil. Birinci növbədə auditoriyanı tanımalıyıq. Bilməliyik ki, kimlərə xitab edirik. Çəkdiyimiz nümunələr, izah tərzimiz, hətta bəzən geyimimiz belə buna əsasən dəyişir. Biz tələbələrdən ibarət auditoriya ilə hansısa dövlət qurumunun işçilərindən ibarət auditoriyaya eyni tərzdə yanaşa bilmərik. Saydıqlarımı auditoriyaya uyğun tətbiq etdikdə dinləyənlər özlərini doğru məkanda hiss edirlər. Dəyişməyən əsas məqamlardan biri isə auditoriyanı yormamaq üçün daha maraqlı gedişatı qurmaqdır. Biz danışacağımız nitqə bir neçə fərqli istiqamətdən də təqdim etməyə hazır olmalıyıq. Danışan zaman auditoriyanın maraqla dinləmədiyini gördüyümüz vaxt fərqli şəkildə davam edə bilmiş ola bilək. Digər bir məqam isə auditoriyanı da nitq prosesinin içinə qatmaqdır. Danışan zaman səni dinləyənlərə sual vermək, onların fikrini almaq həmin insanlara "sizin fikriniz də mənim üçün önəmlidir" mesajını verir. Bu mesaj da onları sənə daha yaxın oturmağa kömək olur. Beləliklə, auditoriyanı asanlıqla manipulyasiya etmiş oluruq.

***Havar Şəfiyeva***



# Türkdilli dövlətlər vahid platformada

***Türkdilli dövlətlər arasında qurulan əməkdaşlıq daha da güclənmiş və yeni, daha düşünülmüş, praqmatik mərhələsinə start verilib. Qeyd edək ki, bu gün türkdilli ölkələrin siyasi fəallığı dünya siyasətinin gündəliyinin müəyyən edilməsinə getdikcə daha çox təsir göstərir. Qeyd edək ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığın genişləndirilməsinə böyük imkanlar yaratmış oldu. Türkdilli dövlətlər arasında səmərəli, etibarlı siyasi dialoq qurulub, bütün sahələrdə hərtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində tədbirlər həyata keçirilir.***




Türkdilli ölkələrin vahid platformada birləşməsi bu ölkələr arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın yüksələn xətlə inkişafına təkandır. 2009-cu ilin oktyabrında türkdilli ölkələrin dövlət başçılarının Naxçıvanda keçirilən toplantısında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) yaradılması barədə qərarın qəbul edilməsi əməkdaşlığın yüksəlməsində mühüm rol oynadı və dünyada türk birliyinin daha da güclənməsinə şərait yaratmış oldu. Naxçıvan sazişinin imzalanmasından keçən müddət ərzində reallaşan layihələr, imzalanan sazişlər və s. türk dövlətləri arasında münasibətləri daha da yaxınlaşdırmış oldu. Naxçıvan sazişinin imzalanmasından keçən dövr ərizində görülən işlər, qarşılıqlı səfərlər türk dövlətləri arasında inteqrasiyanı dərinləşdirmək üçün səmərəli platformaya çevrilib.

Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına Sədrlik dövründə türk dünyasının birləşməsinə böyük töhfələrini verdi. Azərbaycan Respublikasının Prezidenti, Türk Şurasının Sədri İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünün keçirilməsi və bu görüşün koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunması dövlət başçıları səviyyəsində pandemiya ilə bağlı Zirvə görüşünü keçirən ilk beynəlxalq tədbir kimi tarixə düşdü.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşünü xüsusilə qeyd etməliyik. Qəbul olunan tarixi qərarlarla yadda qaldı. Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının ”Türk Dövlətləri Təşkilatı”na dəyişdirilməsi haqqında Qərar, Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi haqqında Qərar, Azərbaycan Respublikası Prezidentinin ”Türk Dünyasının Ali Ordeni” ilə təltif edilməsi haqqında Qərar, Türk Şurası VIII Zirvə Görüşünün Bəyannaməsi, ”Türk dünyasına baxış - 2040” sənədinin qəbulu ilə bağlı Qərar, ”Türk dünyasının birliyinə verdiyi töhfələrə görə” Türk Dövlətləri Təşkilatının Əlişir Nəvai adına Beynəlxalq Mükafatı haqqında Qərar, Türk Dövlətləri Təşkilatında müşahidəçi status haqqında qaydalara dair Qərar və digər qərarların imzalanması tarixi hadisə olaraq əhəmiyyət daşıyır. Cənab Prezident Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşünün tarixi əhəmiyyətinə toxunaraq bildirib ki, biz Şuramızı təşkilata çeviririk və bu təşkilatın çox gözəl gələcəyi var: ”Çünki bu təşkilatın təməlində təbii müttəfiqlər yerləşir və həm tarix, həm mədəniyyət, həm bizim ənənələrimiz, bizim adət-ənənələrimiz, bax, bu, birliyi diktə edir. Eyni zamanda, indiki dünyada təhlükələr hər ay, hər il yaranır və əfsuslar olsun ki, dünyanın aparıcı ölkələri bu təhlükələrə qarşı düzgün addımlar ata bilmirlər və əminəm ki, Türk Dövlətləri Təşkilatının təkcə ölkələrimiz, xalqlarımız üçün deyil, dünya üçün önəmi bundan sonra da artacaq. Çünki bizim işbirliyimiz səmimidir, biz hamımız qardaşıq, bir-birimizə qardaş deyirik, biz hamımız ənənəvi dəyərlər üzərində ölkələrimizi inkişaf etdiririk”.

### ”BİZƏ, HƏR BİRİMİZƏ ƏLAVƏ GÜC VERƏN TÜRKİYƏNİN GÜCLƏNMƏSİDİR”

Vurğulamaq yerinə düşər ki, Azərbaycanın iqtisadi inkişafı regionda həyata keçirilən transmilli layihələrin uğurla reallaşmasına gətirib çıxarıb. İstismara verilən Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri Xəzər neftini və qazını dünya bazarlarına çıxarır. Orta Asiyanın karbohidrogen ehtiyatları Xəzər dənizi və Azərbaycan vasitəsi ilə dünya bazarlarına nəql edilir. Aktau və Bakı dəniz limanları arasında gəmi daşınmalarının inkişafını da vurğulamalıyıq. 2013-cü ildə Bakı, Aktau və Samsun beynəlxalq dəniz limanları arasında Türk qardaş limanları haqqında Anlaşma Memorandumu imzalanmışdır. Aktau və Bakı dəniz limanları arasında gəmi daşınmaları inkişaf etməkdədir. Bakı-Aktau bərə yolu ilə neftlə yanaşı dəmir yol vaqonları, avtomobil, taxıl və s. Yüklərin daşınmaları da yerinə yetirilir. Aktau portundan Qazaxıstanın şimalını birləşdirən 400 km-lik dəmir yolu kənd təsərrüfatı məhsulları və s.-nin daşınmasını xeyli səmərəli edir. Bütün bu layihələr qədim İpək Yolunun bərpası və türk əməkdaşlığı çərçivəsində ticarət və sərmayə əməkdaşlığının gələcək inkişafı məqsədi ilə həyata keçirilib. Türkdilli dövlətlərarası irimiqyaslı infrastruktur layihələri də reallaşdırılıb və bu davamlıdır. Hazırda bir sıra böyükmiqyaslı layihələr həyata keçirilməkdədir.

2020-ci il türk dünyası məhsuldar, Zəfər ili olaraq yadda qaldı. Belə ki, türk dünyasının önəmli uğurları, ən başlıcası Azərbaycan ərazilərinin işğaldan azad olunması, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsi əhəmiyyətli hadisədir. Azərbaycan tərəfi məsələnin sülh yolu, danışıqlar masasında həll edilməsi istiqamətində addımlar atmış olsa da, Ermənistan faktiki olaraq danışıqlardan imtina etdi və ölkəmiz döyüş meydanında öz sözünü deyərək Zəfər qazandı.

Hamının bildiyi kimi, Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan 2020-ci ilin sentyabrın 27-də müharibə başlanan gün açıq şəkildə Azərbaycana dəstək ifadə edərək, Türkiyənin Azərbaycanın yanında olmasını ifadə etdi. Türk Şurası sentyabrın 28-də Azərbaycana dəstək xarakterli açıqlama verdi. Eləcə də digər beynəlxalq təşkilatlar - Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı Azərbaycana siyasi dəstək göstərdilər. Bu gün dünya miqyasında Türkiyə siyasi, iqtisadi, hərbi gücü ilə tanınır. ”Türkiyənin inkişafı, Türkiyədə sabitliyin təmin olunması bütün türk dünyası üçün önəmli şərtdir”, - deyən Cənab Prezident bildirib ki, türk dünyasının mərkəzində dayanan güclü Türkiyə dövlətidir: ”Bizə, hər birimizə əlavə güc verən Türkiyənin güclənməsidir və buna görə hər birimiz əziz Qardaşıma minnətdar olmalıyıq”.

TDŞ hər zaman Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişə ilə bağlı Azərbaycanın haqlı mövqeyini dəstəkləmiş və 2020-ci ilin iyul ayında baş vermiş Tovuz hadisələri və 27 sentyabr tarixindən başlayaraq, Ermənistan tərəfindən həyata keçirilən təxribatlarla bağlı mütəmadi olaraq bəyanatlar vermişdir. TDŞ-in baş katibi 2020-ci ilin 20 oktyabr tarixində Gəncə şəhərini ziyarət etmiş, Ermənistan tərəfindən Gəncənin raket atəşinə tutulması ilə bağlı Türk dünyası adından həmrəyliyi nümayiş etdirən bəyanatla çıxış etmişdir. İşğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulması layihələrinə Türk Şurasına üzv və müşahidəçi ölkələrdən olan şirkətlər və iş adamları maraq göstərir, bu xüsusda 2021-ci il sentyabrın 10-da Bakı şəhərində ”Azərbaycanın işğaldan azad edilmiş Qarabağ regionunun bərpasına və inkişafına həsr olunmuş” biznes forum keçirilmişdir. Türkdilli dövlətlər arasında media sahəsində əməkdaşlıq da olduqca önəmlidir. Belə ki, Azərbaycan və Türkiyə arasında artıq media platforması yaradılmışdır.

Ən çətin anlarda türk dünyası Azərbaycanın yanındadır. Türk Dövlətləri Parlament Assambleyasının Katibliyi Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində insan tələfatı və yaralanması ilə nəticələnən hərbi təxribatı qətiyyətlə qınayıb. TÜRKPA beynəlxalq hüququn norma və prinsiplərinə sadiqliyini və qardaş Azərbaycanın ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına güclü dəstəyini bir daha təsdiq edərək, Cənubi Qafqazda davamlı sülh və sabitlik naminə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün səylərin əhəmiyyətini vurğulayır. Əlbəttə ki, bütün bunlar türk dünyasını vahid bir məslək ətrafında birləşdiyinin təcəssümüdür.

### ”ZƏNGƏZUR KORİDORU İSƏ HƏM TÜRK DÜNYASINI, HƏM AVROPANI, HƏM QONŞULARIMIZI BİRLƏŞDİRƏ BİLƏCƏK BİR LAYİHƏDİR”

Şərqi Zəngəzur və Qarabağ bölgələrinin bərpası üçün Azərbaycana ən çox dəstək verən də qardaş ölkə Türkiyədir. Türkiyənin bir çox şirkətləri infrastruktur layihələrində iştirak edirlər. Vurğulamaq yerinə düşər ki, Füzuli Beynəlxalq Hava Limanının inşasında Azərbaycan şirkətləri ilə yanaşı, 12 türk şirkəti də iştirak edib.

Bu gün Zəngəzur dəhlizinin yaradılması təkcə iqtisadi deyil, həm də böyük siyasi əhəmiyyət daşıyan hadisə kimi böyük əhəmiyyətə malikdir. ”Zəngəzur koridoru isə həm türk dünyasını, həm Avropanı, həm qonşularımızı birləşdirə biləcək bir layihədir”, - deyən Cənab Prezident bildirib: ”1920-ci ildə sovetlər hakimiyyəti Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana verməklə türk dünyasının coğrafi bağlantısını pozmuşdur və bunu xəritəyə baxmaqla hər kəs görə bilər. Bu gün isə biz bu coğrafiyanı bərpa edirik. Artıq nəqliyyat, kommunikasiya layihələrinin həyata keçirilməsi ilə biz bu coğrafiyanı yenidən bağlayırıq, birləşdiririk və ümid edirəm ki, buna sona qədər müvəffəq olacağıq.”

TDŞ ölkələr arasında yaxınlaşmanın, inteqrasiyanın inkişaf etməsində ciddi rol oynayıb və bundan sonra töhfələrini verəcəkdir.

***Zümrüd BAYRAMOVA***

# Davam edən ERMƏNİ YALANLARI

***Hələ də Ermənistan vətəndaşları aldadılırlar. Bu vaxta qədər dəfələrlə aldadılan ermənilərə yenə də yalan danışılır, yalan vədlər, yalan bəyanatlar verilir. Yenə də daxili auditoriyaya hesablanan çıxışlarla erməni xalqı axmaq yerinə qoyulur və hələ də avamların vədlərə inanacağına ümid edən Ermənistan hakimiyyəti bu vəziyyətdə hara qədər, nə vaxta qədər hakimiyyəti əlində saxlayacağını düşünür? Nə vaxta qədər prosesi uzada biləcəklərini anlamaları üçün əlbəttə ki, Azərbaycanın yaratdığı reallıqları görmələri, anlamaları, çarəsiz qaldıqlarını etiraf etmələri gərəkir.***

Ermənistan hakimiyyəti 12 sentyabr tarixli təxribatlarının ardınca qarşılaşdıqları antiterror əməliyyatlarının nəticəsi olaraq itgiləri ilə bağlı məlumatların hələ də araşdırıldığını bəyan edir. Əvvəla, işğalçı ölkənin öz hərbiçisinə, döyüşçüsünə nə qədər dəyər verdiyi, daha dəqiq desək, dəyər vermədiyi hələ də araşdırmasının bitmədiyindən görünür. Digər tərəfdən də həmin ölkə hakimiyyətinin itgilərlə bağlı məlumatların hələ də araşdırıldığını utanmadan bəyan etməsi, həm erməni cəmiyyətinə, erməni xalqına, həm də ölən hərbçilərə, onların valideynlərinə hörmətsizlikdən xəbər verir. Ölən əsgərlərin sayının araşdırılması, təyin edilməsi bir mağazada oğurluq hadisəsinin araşdırılması qədər ucuzlaşdırıldığı dərhal özünü biruzə verir və bunu erməni cəmiyyəti yəqin ki, görür, anlayır.

İşğalçı ölkənin birinci şəxsi, baş naziri bir-birinin ardınca müxtəlif, fərqli rəqəmlər barədə bir neçə dəfə açıqlama verir. Söhbət Nikol Paşinyandan gedir, o Paşinyandan ki, əvvəlcə 49 nəfərin, ardınca da 105 nəfərin öldüyünü elan edib. Nikol bunu məhz ölkəsinin Milli Məclisinin divarları arasında söyləyib, hakimiyyətə gəldiyi küçədə yox. Göründüyü kimi, bütün bunların ardınca da erməni baş nazir məhz hökumətin iclasında Ermənistan tərəfdən olan itkilərlə bağlı yeni məlumatları açıqlayıb və bu günə qədər itgilərin, ölənlərin sayının 135 nəfər olduğunu bildirib. Bu rəqəm Paşinyanın dilindən çıxıb və bu statistika baş nazirin bəyanatıdır. Göründüyü kimi, 44 günlük müharibədə real itkilər haqqında utanmadan və davamlı şəkildə yalan danışan erməni baş nazir öz ənənəsinə sadiq olduğunu, yalançı olduğunu bir daha sübut edir. Təsdiq edir ki, üç dəfə müxtəlif rəqəmlər söyləmək, yəni yalan danışmaq, erməni xalqını aldatmaq onun üçün adi haldır.

Göründüyü kimi, erməni yalanları davam edir və bu məsələdə işğalçı ölkə hakimiyyəti bütün erməniləri qabaqlayır. Ermənistan tərəfinin törətdikləri 12 sentyabr təxribatlarının nəticəsində ölənlərinin dəqiq sayı, həmin ölkə hakimiyyəti







tərəfindən göstərilən statistik rəqəmlərdən dəfələrlə çoxdur. Yəni, yenə də həmin ölkə hakimiyyəti erməni xalqını axmaq yerinə qoyur, aldadır. Bu hal əslində, erməni cəmiyyətinin ümidlərinin puça çevrilməsi deməkdir, çünki yalanlar onları sonda acı həqiqətlərlə qarşılaşdırır ki, faciə də belədə özünü göstərir. Görünür ki, Paşinyan özü də yalandan vədlər verərək hakimiyyəti ələ keçirmək üçün ortaya atılmışdı və buna nail olandan sonra da yalan danışmaqda davam edir. Reallıq isə ondan ibarətdir ki, Azərbaycanın gücü, qüdrəti qarşısında Ermənistan acizdir və ermənilərin istənilən təxribatı bu reallığa kölgə belə sala bilməz. Bu reallıq fonunda Ermənistanın hansısa müqavimət göstərmək istəyi düşdüyü vəziyyət qədər gülünc görünür.

Sərxoş vəziyyətdə oynayan Paşinyan Tovuz təxribatlarının ardınca yenə də təxribata əl atmaqla müharibəyə start vermiş oldu və Azərbaycanın qələbəsi, ölkəsinin isə məğlubiyyəti ilə nəticələnən acınacaqlı hal Ermənistanı rüsvayçı vəziyyətə saldı. Bəlkə də Paşinyan bu dəfə də sərxoş olub təxribat törətməklə vəziyyəti dəyişmək qərarına gəlib, amma bu sərxoşluğu da ona baha başa gəlib və həm ölən hərbçilər, həm də əllərindən çıxan ərazilər, strateji mövqelər baxımından yenə də acınacaqlı duruma düşüb. Onun yalan danışması da elə buna görədir və hansısa formada daxili auditoriyaya hesablanan çıxışları, bəyanatları ilə xalqı aldatmağı çıxış yolu hesab edir.

KTMT-yə müraciət etdiyi zaman da Nikolun başı daşa dəymiş oldu. Bu təşkilatın məsələyə müdaxilə etməsinə çalışan erməni baş nazir heç nəyə nail ola bilmədi. Əksinə, bir daha əmin oldu ki, cəhdləri uğursuzdur. Əmin oldu ki, bütün hərəkətləri onun əleyhinədir və Ermənistanın üzv olduğu təşkilat belə Azərbaycanın haqlı mövqeyinə qarşı çıxmaz. Bunun əyani sübutu ilə qarşılaşan Paşinyan çox güman ki, çarəni yenə də yalanlarda tapıb. Məsələ burasındadır ki, həmin yalanlar onun özünün sonunu getdikcə yaxınlaşdırır, çünki artıq erməni cəmiyyəti bu avantüristin yalanlarından, hiyləsindən bezib. Silah çatışmazlığından şikayətlənən Paşinyanın kimliyi, nəyə qadir olduğu erməni xalqına bəllidir. İndiki durumda Ermənistana heç kimin silah satmaq belə istəmədiyini etiraf etməsi isə təkcə Nikolun özü üçün yox, bütövlükdə Ermənistan dövləti üçün ən böyük biabırçılıqdır. Bu biabırçılığı görən, başa düşən erməni xalqı necə öz hakimiyyətinə inana, ümid edə bilər? Axı, heç kimin Ermənistana silah satmaq belə istəməməsi bu ölkənin Müdafiə Nazirliyinin, Xarici İşlər Nazirliyinin, Prezidentin və Baş nazirin birbaşa olaraq vəzifələrinin öhdəsindən gələ bilməməsinin isbatıdır.

Son günlər Ermənistan hakimiyyəti ABŞ Konqresinin Nümayəndələr Palatasının sədri Nensi Pelosinin bu ölkəyə gəlişini utanmadan, "tarixi səfər" adlandırır və bu dəfə də erməni cəmiyyətini aldadır ki, guya regionda güc balansı dəyişəcək. Rusiyanın belə bununla hesablaşmalı olacağını iddia edən avantüristlər yenə də daxili auditoriyanı çaşdırmaq, öz məqsədlərinə nail olmaq istəyirlər. Hətta, bu görüşü Azərbaycan, eləcə də Türkiyə üçün bir mesaj adlandıran axmaqlar yenə də unudurlar ki, Azərbaycanın yaratdığı yeni reallıqlarla, haqlı mövqeyi ilə əvvəla, bütün dünya barışıb, bu reallıqları da qəbul edib. Digər tərəfdən də Nensi Pelosinin işğalçı ölkəyə gəlişi nəyi dəyişə bilər axı?

Xatırladaq ki, ABŞ Konqresinin Nümayəndələr Palatasının sədri Nensi Pelosi bu ilin mayında Kiyevə də səfər etmişdi və bu günə qədər kimsə, nəyinsə, hansısa dəyişikliyin şahidi olmayıb. Pelosinin səfəri nə Ukraynanı bir addım irəliyə aparıb, nə də ABŞ Konqresinin Nümayəndələr Palatasının sədri müharibənin başa çatmasına nail ola bilməyib. Bəli, ABŞ hazırda Rusiya ilə müharibədə Ukraynaya dəstək verən ölkədir və bunu hamı bilir. Amma hamı onu da bilir ki, bu siyasət Rusiyanı özünə rəqib bilən ABŞ kimi bir dövlətin siyasətidir, Nensi Pelosinin yox. Bu mənada, xanım Pelosi Ermənistan üçün nə isə etmək istəsə belə, bu o demək deyil ki, ABŞ da bunu etmək fikrindədir. Xeyr, ABŞ kimi bir dövlətin öz siyasəti, öz maraqları var və hansısa təsirlərdən dəm vurmaq cəfəngiyyatdır. Ola bilsin ki, Nensi Pelosinin Ermənistana gəlişi bu ölkə üçün hansısa iyanə demək olar və bunu hamı qəbul edir ki, həmin ölkə onsuz da yardımlar hesabına hələki mövcuddur. Digər tərəfdən də axı, Ermənistan hakimiyyəti əvvəlcədən boynuna almışdı ki, bu işğalçı ölkəyə kisə silah satmaq belə istəmir. O halda avantüristlər, manipulyatorlar nədən dəm vururlar?

Təbii ki, Ermənistanda ortaya atılan bütün uydurmalar kimlərinsə maraqlarına xidmət edir və erməni xalqı hələ də aldadılır. Hələ də erməni yalanları davam edir. Bu davam edən erməni yalanlarına görə də bu yalanları dinləyən, ona aldanan cəmiyyət də itgilər verməkdə, uduzmaqdadır. Nə Nikol Paşinyan, nə onun komandası, nə erməni odeoloqları, tarixçiləri, nə də onları idarə edənlər erməni xalqının acısını hiss etmir, əks halda belə yalanlara, uydurmalara, mənasız vədlərə son qoyulardı və işğalçılığa yox deyərək, qonşu dövlətlərlə normal münasibətlərə üstünlük verilərdi.

***İnam Hacıyev***

# İnsan kapitalı: uğurlu gələcəyimizin təminatı



*Dövlət başçısının Sərəncamı ilə yeni modul tipli təhsil müəssisələrinin quraşdırılmasına büdcədən 5,0 (beş) milyon manat ayrılıb*

***Azərbaycanda təhsilin keyfiyyətinin artırılması, həmçinin, bu yöndə müxtəlif dövlət və beynəlxalq əhəmiyyətli layihələrin həyata keçirilməsi birbaşa cəmiyyətimizin elmi səviyyəsinin və təfəkkürünün inkişafına xidmət edir. Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində, ölkənin imkanları artdıqca, dövlət əldə olunan gəlirləri milli-intellektual potensialı reallaşdırmağa yönəldir. Azərbaycan Prezidenti İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövr ərzində, təhsilin inkişafı ilə bağlı qarşıya qoyulmuş hədəflər uğurla yerinə yetirilib. Qəbul olunmuş dövlət proqramları, layihələr, aparılan islahatlar təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsində mühüm rol oynayıb.***

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq ucqar kəndlərdə az şagird kontingentli qəzalı məktəblərin yeni binalarla əvəz edilməsi çərçivəsində modul tipli məktəb təcrübəsi tətbiq edilib. Modul tipli məktəblərin üstünlüyü onların azməsrəfli olması ilə yanaşı, qısa müddət ərzində istənilən relyefdə quraşdırılması, asan daşınması, sinif otaqlarının sayının şagirdlərin sayına uyğun olaraq rahatlıqla azaldılıb-artırılmasıdır. "Azərbaycan Respublikasında modul tipli təhsil müəssisələrinin quraşdırılması işlərinin davam etdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti 19 sentyabr 2022-ci il tarixində Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının ərazisində yeni modul tipli təhsil müəssisələrinin quraşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 10 fevral tarixli 3143 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.3-cü yarımbəndində göstərilmiş məbləğin 5,0 (beş) milyon manatı bu Sərəncama əlavəyə uyğun olaraq Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə ayrılıb.

Belə ki, Kürdəmir rayonunun Axtaçı kəndində 56 şagird yerlik, Şamaxı rayonunun II Cabanı kəndində 80 şagird yerlik, Ağstafa rayonunun Köçvəlili kəndində 132 şagird yerlik, Daşkəsən rayonunun Tapan kəndində 40 şagird yerlik, Goranboy rayonunun Kürəkçay kəndində 56 şagird yerlik, Şəmkir rayonunun Ələsgərli kəndində 96 şagird yerlik, Qusar rayonunun Hil sirt kəndində 132 şagird yerlik, Cəlilabad rayonunun Moranlı kəndində 96 şagird yerlik, Lerik rayonunun Buruq kəndində 40 şagird yerlik, Yardımlı rayonunun Cirimbel kəndində 80 şagird yerlik və digər ərazilərdə modul tipli məktəblərin quraşdırılacaq.

Bu sənəd görülən işlərin davamının təzahürüdür. Məktəblərdə əsaslı təmir-tikinti işlərinin aparılması, müasir tipli yeni təhsil ocaqlarının tikilib istifadəyə verilməsi regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarında öz əksini tapıb. Yeni təhsil müəssisələrinin tikintisi, mövcud məktəblər üçün əlavə korpusların inşası, əsaslı təmiri, müasir avadanlıqla, laboratoriyalarla təminatı nəticəsində iki və üçnövbəli məktəblərin sayı xeyli azalıb. Müstəqillikdən sonra aparılan islahatlar nəticəsində Azərbaycanın elə regionu yoxdur ki, orada yeni məktəb binaları tikilməsin, yaxud mövcud məktəblər təmir edilməsin. Göründüyü kimi, zəngin təbii sərvətləri olan Azərbaycanda, bu sərvətlərdən səmərəli istifadə etməklə, insan kapitalının daha da inkişaf etdirilməsi başlıca amilə çevrilib.

***Zümrüd BAYRAMOVA***

## Bakcell xidmətlərində yaranmış fasilə ilə bağlı əlavə məlumat verib

Məlum olduğu kimi, sentyabrın 21-də axşam saatlarında yaranmış texniki nasazlıq nəticəsində Bakcell xidmətlərindən istifadə etmək mümkün olmayıb. Bakcell şirkəti bildirir ki, hazırda şəbəkənin təkmilləşdirilməsi və ən son texnoloji həllərin tətbiqi istiqamətində beynəlxalq tərəfdaşlarla birlikdə böyük layihələr həyata keçirilir.

21 sentyabr tarixində axşam saatlarında şirkətin xidmətində yaranmış fasilə Nokia ilə birlikdə aparılan genişmiqyaslı modernizasiya işləri ilə bağlı olub. Problemin həlli istiqamətində "Nokia"nın beynəlxalq dəstək komandası və "Bakcell"in texniki heyəti birlikdə çalışıb və texniki nasazlıq tam aradan qaldırılıb. Xidmətlərimizin göstərilməsində yaranan fasiləyə görə abunəçilərimizdən üzr istəyirik.

## "Nar" ölkədə jest dilinin inkişafına töhfə verməyə davam edir

Ünsiyyəti hər kəs üçün daha əlçatan etməyi hədəfləyən "Nar",BMT tərəfindən qəbul olunmuş 23 Sentyabr Beynəlxalq Jest Dili gününə öz dəstəyini ifadə edir. Belə ki, eşitmə və nitq məhdudiyyətli insanların cəmiyyətə inteqrasiyasının önəmini dərk edərək mobil operatorKSM strategiyası çərçivəsində bu istiqamət üzrə




mühüm sosial əhəmiyyətə malik layihələr həyata keçirir.

"Regional İnkişaf" İctimai Birliyinin "Sosial layihələr" müsabiqəsinin qalibi olan "Doğma jest dili" lüğətinin ölkədə ilk dəfə elektron versiyası - jestdili.az saytı "Nar"ın da dəstəyi ilə ərsəyə gətirilib. Bu elektron lüğət artıq bir ildir ki, Azərbaycanda eşitmə məhdudiyyətli insanların vahid jest dili lüğəti kimi istifadə olunur. 3000-ə qədər söz və söz birləşməsinin izahedici mətnləri, 2000-dən çox jestin şəkilləri və videoları yerləşdirilən sayt eşitmə və nitq məhdudiyyətli şəxslər və onların yaxınları, həmçinin bu qrup insanlarla işləyənlər üçün böyük əhəmiyyət kəsb edir. Elektron lüğət Azərbaycan və rus dillərindədir,hər kəs üçün açıqdır və mobil cihazlar üçün də uyğunlaşdırılıb. Layihə haqqında ətraflı məlumatı hazırladığımız videoçarxdan izləyə bilərsiniz.

Bundan başqa, mobil operator 2016-cı ildən bölgələrdə və paytaxtda eşitmə məhdudiyyətli insanların əmək yararlılığına və cəmiyyətə inteqrasiyasına dəstək üçün "Təlim Məktəbi" layihəsini həyata keçirir. Davamlı layihələrdən olan "Təlim Məktəbi" sayəsində eşitmə və nitq məhdudiyyəti olan insanlar müxtəlif peşələr üzrə praktiki təlimlərdən keçir və onların uyğun iş yerləri ilə təmin olunmasına dəstək göstərilir. Ümumilikdə, təlimlərdən bugünə qədər 100-dən çox insan faydalanıb.

"Nar"ın eşitmə və nitq məhdudiyyətli insanların cəmiyyətə inteqrasiyası üçün sosial layihələri həm də BMT Qlobal sazişinin bir üzvü olaraq dayanıqlı inkişaf məqsədlərinə olan öhdəliyinə sadiqliyinin ifadəsidir.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# 27 sentyabr- böyük zəfər tariximizin başlanğıc nöqtəsi!

***27 SENTYABR - Zəfərə aparan tarixi qərardan iki il ötür. Azərbaycan ictimaiyyəti bu günlərdə böyük qürur hissi ilə milli tariximizdə silinməz iz qoymuş 27 sentyabr Vətən müharibəsinin başlanmasının, Azərbaycan torpaqlarında 30 illik erməni işğalına son qoyulmasının, tarixi Qələbənin ikinci ildönümünü qarşılayır. Müstəqilliyimizi bərpa edəndən sonra ikinci dəfədir ki, biz rayonlarımızın işğal tarixini yox, azad edilməsini qeyd edirik.***



*SEYFƏDDİN ƏLİYEV, YAP Masallı rayon təşkilatının sədri*

### Şanlı qələbə: tariximizin qürur səhifəsi

Sentyabrın 27-dən başlanan İkinci Qarabağ müharibəsi Azərbaycanın qələbəsi və Ermənistanın kapitulyasiyası ilə başa çatdı. 44 gündə 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər işğaldan azad edildi. Bu, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının diplomatik siyasəti, Güclü Azərbaycan Ordusunun, Rəşadətli qəhrəman və qorxmaz igid əsgər və zabitlərimizin və xalqımızın birliyi, həmrəyliyi nəticəsində əldə olundu. Noyabrın 11-də dövlət başçımız İlham Əliyev 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşündə "Qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir" söyləyərək onların qəhrəmanlıqları əsasında yazılan tarixdən geniş bəhs edərkən onu da vurğuladı ki, düşmənin qənimət götürülmüş hərbi texnikasının Bakıya gətirilməsinə, bunun üçün yer seçilməsinə göstəriş verilib və həmin texnikanı nümayiş etdirəcəyik, bütün Azərbaycan xalqı nəyi əldə etdiyimizi görəcək.

### Ali Baş Komandan 44 gün ərzində dediyini etdi!

Bəli, Ali Baş Komandan dediyini etdi, həm də göstərdi ki, onun xəbərdarlıqlarını diqqətdən kənar qoymaq olmaz! Çünki artıq şərtləri Qalib ölkənin Qalib Lideri diktə edir! Və bu günə kimi bu şərtlərə əməl etməyənlər sonrakı peşmançılığını çəkirlər. İkinci Qarabağ Müharibəsinin 44-cü günündə Ali Baş Komandan, Prezident İlham Əliyev cənablarının "Dəmir Yumruq" siyasətinə əməl edən əsgər və zabitlərimizin yüksək vətənpərvərliyi, igidliyi və yenilməzliyi, Prezident-xalq-ordu birliyi sayəsində ədalət bərpa olundu, işğala son qoyuldu, Ermənistan və onun "yenilməz ordusu" döyüş meydanında darmadağın edildi, diz çökdü. Budur, Ali Baş Komandan siyasəti! Budur, Müzəffər Ordunun məğrurluğu! Budur, rəşadətli əsgər və zabitlər, Prezident-Xalq-Ordu birliyi! Çünki 30 il həsrətində olan torpaqlarımız geri qayıtmalı idi, QAYITDI da! Müharibənin başlandığı ilk gündən Ali Baş Komandanımız, Prezident İlham Əliyev sülh danışıqlarının zəruriliyinə nə qədər çağırışlar etsə də, döyüşün dayandırılması üçün təzyiqlər göstərilməsinə baxmayaraq, dövlətimizin başçısı öz prinsipiallığını, əzmini bir daha nümayiş etdirdi. Azərbaycan Prezident İlham Əliyev istər xalqa müraciətlərində, istərsə də 44 gündə xarici mətbuata 30-a yaxın müsahibəsində səsləndirdiyi bəyanatlarda bir daha sübut etdi ki, Azərbaycanın milli maraqları hər şeydən öndə dayanır. Dövlətin maraqlarından, xalqın iradəsindən kənar bir addım belə atıla bilməz. Ancaq işğalçı Ermənistan İkici Vətən Müharibəsinin ilk günündən öz terrorçu niyyətini, işğalçı siyasətini nümayiş etdirdi, ancaq faşist xislətli düşmən etdiyi cinayətlərə görə bədəli böyük oldu. 30 il ərzində əzəli-əbədi torpaqlarımızı işğal altında saxlayan təcavüzkar Ermənistan hakimiyyətinin nəhayət ki, qanunsuz əməllərinə beynəlxalq hüquq çərçivəsində son qoyuldu. Tarixi ədalət bərpa olundu! Azərbaycan Qarabağa qovuşdu, haqq öz yerini tutdu! Bütün dünya işğal faktı ilə barışmayacağını qətiyyətlə bəyan edən Azərbaycan xalqının və dövlətinin iradəsini gördü. Prezident İlham Əliyevin hərb, siyasət və diplomatiya müstəvisində uğurlu fəaliyyəti nəticəsində qüdrətli Azərbaycan dövləti erməni faşizminin başını əzdi - belini qırdı, təcavüzkarı layiqincə cəzalandırdı. 44 gün ərzində dediyini etdi! Həm də göstərdi ki, onun xəbərdarlıqlarını diqqətdən kənar qoymaq olmaz! 44 günlük müharibənin nəticələri və postmüharibə dövründə Azərbaycanın qazandığı nailiyyətlər sübuta yetirdi ki, Müzəffər Ali Baş Komandanımızın ətrafında sıx birləşmiş, həmrəylik nümayiş etdirən Azərbaycan xalqının mübarizə ruhu sarsılmazdır.

### Vətən övladlarına böyük ehtiram, hörmət və qayğı nümunəsi

Və bu gün Azərbaycan dövləti və cəmiyyəti Vətənin bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman övladlarımıza, onların ailələrinə, qazilərimizə böyük hörmət, diqqət və qayğı göstərir. Prezident İlham Əliyevin 27 sentyabr - imzaladığı Zəfərə aparan "tarixi qərar"ına əsasən Vətən müharibəsinin başladığı günün Azərbaycan Respublikasında Anım Günü kimi qeyd olunması imzaladığı Sərəncamı dövlət başçımızın Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, dövlət müstəqilliyimizin və suverenliyimizin rəmzi olan üçrəngli bayrağımızı işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiramın ifadəsidir. Bununla yanaşı, Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı hərbi əməliyyatlarda iştirak edərək şücaət nümayiş etdirmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Silahlı Qüvvələrin hərbi qulluqçularının Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunmaları təqdirəlayiq hal kimi cəmiyyətdə olduqca yüksək dəyərləndirilir. Bütün bunlar, eyni zamanda, milli həmrəyliyimizi gücləndirən strateji amillər qismində çıxış edir.

### "Dəmir yumruq" öz yerindədir

Beləliklə, Azərbaycan olduqca mürəkkəb beynəlxalq münasibətlər sistemi şəraitində öz gücü - qüdrəti ilə münaqişəni həll etdi, işğal faktını aradan qaldırdı, separatizmin məhvinə nail oldu. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Azərbaycan 30 illik münaqişəni hərbi-siyasi yollarla həll etdi, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı". Ən əsası, dövlətimizin gücünün, xalqımızın həmrəyliyinin ifadəsi olan "Dəmir yumruq" öz yerindədir və Müzəffər Ali Baş Komandanımızın qeyd etdiyi kimi: "Əgər kimsə revanşist fikirlərlə yaşayırsa, bax, bu yumruğu görəcək, bu, yerindədir və bizim səbrimizi sınamasınlar. Ermənistan ordusu bitdi, yoxdur və olmamalıdır. Belə bir faşist dövlətdə ordu olmamalıdır. Biz heç vaxt imkan verməyərik ki, bizim üçün hər hansı bir təhlükə yenidən yaransın, yaxud da ki, azad edilmiş torpaqlara qayıdacaq vətəndaşlarımız hər hansı bir risk hiss etsinlər".Sonda Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev ötən il Anım Günü ilə əlaqədar xalqa müraciətində dediyi kimi: "Bu gün Anım Günündə şəhidlərimizin əziz xatirəsi önündə bir daha deyirəm, əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!".Prezident İlham Əliyev bir daha vurğulayıb ki, biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik: "O torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır. Bu qayıdışı ən qısa müddət ərzində təmin etmək bu gün bizim başlıca vəzifəmizdir. Öz müraciətimi Qələbəmizin ayrılmaz hissəsi olan sözlərlə tamamlamaq istəyirəm: Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

# Xoş gəldin, Zəfər fəsli!

***Xoş gəlirsən, gəl, payızım. Səni təntənəsiz, təmtəraqsız qarşılamaqmı olar? Ey fəsillər fəsli, mövsümlərin şahı, zəfər payızım, gəl! Gəl ki, zəfərimizin ikinci ilini bayram edək. Gəl ki, səni minlərimizə laylay edək. Gəl, payızım-zəfərim. Digər mövsümlərtək çox da sevilməyən, lakin 2020-dən hər kəsin sevimlisi fəslim, gəl. Sən əvvəllər insanların sevmədiyi xəzan çağı, bağbağçanın solan anı, yaşıl rəngin qənimiydin.***

Dünənədək ağacların xanı olan yarpaqları xəzəl edib küləklərin ətəyində küçələrdə, dalanlarda o divara, bu divara çırpan idin. Yağışınla, çiskininlə, qara-bozlu buludunla ürəklərə ələm idin. Küçələrdə, bağçalarda islatdığın xəzəlinlə insanların rahatlığın pozan, bəddualar fəsli idin. Xəzəlini neçə həftələr toplayıb, ta bezikib ağacların solğunlaşmış yarpaqlarını çırpıb səndən biryolluq qurtarmaq istəyənlərin dillərində qarğış idin. Az insandı sənin rənglərində təbiətin hüsnün görən. O min rəngli yarpağında yaşılın hicranın görən. Çox az insandı xəzəlinin nəğməsini dinləməkçün saatlarla səninlə olan, küçə, dalan, xiyabanları dolanan. Səndən ilham alıb şair, rəssam, bəstəkar, yazar olan. Çox az insandı...

Deyirlər, Allah hər kəsi eyni yaradıb, onlara hər şeyi eyni verib, amma nədənsə biz insanlar bunu anlamaq istəmirik. Daha doğrusu anlamağa çalışmırıq ki, məndə olan səndə bir başqa şəkildədir. Bax götürək elə səni. İki il öncəyədək təbiətin sonu - yaşıl rəngli övladını qoynundan alan, növrağını pozan idin. Amma əslində sən həm də o yaşıla zamanla veriləcək yeni bir həyat idin. Bilindimi qədir-qiymətin? Yox. Yaz bir yandan, yay bir yandan, insanlar da bir yandan tənə etdilər sənə. Üşütdükcə, küləkləri əsdirdikcə, qış xəbərin gətirdikcə sevilməyən fəsil oldun. Bəlkə də acıdı ulu Yaradan, pozdu bərabərliyi aranızda. Səni elə bir zirvəyə qaldırdı ki, fəsillərin şahı, ta bu dünya durduqca zirvələrdən boylanan oldun...

Gəl payızım-zəfərim, payızım-yazım, gəl! Gəl, ötən ilindən, indi səni milyonlarla sevənlərə özündən danış. Otuz illik Qarabağın hicranını vüsal edən o qırx dörd gününün hər anın danış. Gəl, payızım-zəfər fəslim, Ali Baş Komandanımızın əmrindən, ərənlərin Vətənimin harayına verdikləri haydan danış... İgidlərin başının altına yastıq olan, bir zamanlar sevilməyən xəzəlindən, səntək heç bir fəslin görmədiyi qandan danış. Torpağımdan, əzəl yurdlarımdan danış. Suqovuşana qovuşmaqdan, Şuşadakı əlbəyaxa döyüşlərdən, göz yaşını otuz il sularına qarışdıran Arazın Xudafərin vüsalından, dünyaya göz dağı olan Məhəmməd Füzulinin adını daşıyandan, Ağdam, Laçın, Kəlbəcərdən-o ellərin hamısından, məşhur Qarabağ atlarından, düz otuz il boynubükük xarıbülbüldən danış. Düşməni doğma yurdumuzdan qovan, acgözlüyə divan tutan, gəncliyini torpağına qurban verən, anaları qara yaylıq, ataları belibükük, balaları yetim edən, qız-gəlinin gözlərini əbədi bir yola dikən minlərimdən danış...

Sonsuz idin, ana oldun iki il öncə, payızım. Minlərimin anası, onlardan danış. Qoynunda laylay deyib torpağa tapşırdığın igid, ərlərimdən danış. Ağlamadın, yağış yağar, əsgərim islanar, xəstə olar. Yer islanar, palçıq olar, namus, qeyrət, ar davası yarım qalar. Göz yaşın içinə axdı, ürəyin sızladı, payızım. Sən nə qədər güclüymüşsən... İlahi, tək bir ana gör neçə min oğul verdi qırx dörd gündə torpağa. Bu xəbəri minlərimin uzaqdakı anasına da sən verdin. Hər xəbəri verəndə də nələr çəkdin...

Dağ payızım, dağlı payızım, həm də ki, vüqarlı payızım, gəl, xoş gəlirsən bu ellərə. Qurban sənin əsgər ayağı dəyən, yastıq, yorğan xəzəlinə, igid nəfəsi qarışan nəfəsinə, ərənlərin səninlə son görüşünə. Şəhidimə şəhid fəsil, qurban səndə axan qanlara, bağrına çəkilən dağlara, köksündəki yaralara. Qurban sənin otuz ilin həsrətini qırx dörd gündə yox etdiyin ana. Yurd hicranlı qaçqın, köçkün, didərginə açdığın qucağa, kilidli qapılardan qopardığın qıfıllara... Qarabağa gətirdiyin bahara. O bahar ki, otuz ildi, didərgindi Qarabağdan. Payızıydın, payızında bahar oldun, yaz günəşi kimi doğdun. Minlərlə anadan balasını alsan da, Qarabağı sən qaytardın doğma ana qucağına.

”Oğullar Vətənə qurban doğulur. Qoy olsunlar qurban, ta ki torpaq var olsun, yad əllərdə qalmasın,- dedin. İgidlərimi aldın, əvəzində namusumuz, iffətimiz, izzətimiz olan torpağı geri verdin. 44 gündə dünyanı bizimlə birgə heyran etdin. Ölkələr rəhbərimiz ətrafında birliyimizin dəmir yumruq olub düşmən başına endirildiyindən, bu yumruğun otuz ilin sükutunu paramparça etdiyindən danışdılar. Haqqına susduqları haqsızlıq üsyan eyləyib Qarabağ sehrini çözdü. Biz zəfər qazandıq. Səninlə birgə qalib olduq, payızım. Sən sadəcə payızdın, zəfər payızı oldun. Fəsillərin şahı oldun, adını dəyişib Zəfər fəsli oldun. Həm kədərimiz, həm qürurumuz oldun. Elə o üzdən də övladlarını səndə itirən bu Vətənin anaları deyir:

*Şalımı al bağlaram,*
*Qara yox, al bağlaram.*
*Qarabağda minlərimi*
*Mən qürurdan ağlaram.*

***Mətanət Məmmədova***




## Türkiyədə neçə nəfər yaralımız müalicə alır?



Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə igid oğullarımız Azərbaycan tarixində şanlı qələbə qazanaraq zəfər çaldılar. 44 günlük müharibə nəticəsində 30 il işğal altında olan torpaqlarımız geri qaytarıldı. Hər kəsin xəyalları gerçək oldu. Bu gerçəkliyi dəyanətli oğullarımız qazandı. Məhz müharibə nəticəsində canından və qanından keçən şəhid ailələrinin və qazilərimizin həyat şəraitini yaxşılaşdırmaq eyni zamanda problemlərini həll etmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı əsasında ”YAŞAT” Fondu yaradıldı. ”YAŞAT” Fond müntəzəm olaraq şəhid ailələrinin, qazilərin həyat və fəaliyyətlərinin yaxşılaşdırılması istiqamətində fəaliyyət göstərir. Bəs il ərzində nə qədər şəhid ailəsinə və yaralılarımıza yardımlar olunub? Fond tərəfindən xaricə göndərilən yaralılarımızın sayı neçədir? Hazırda onların səhhəti nə durumdadır? Mövzu ilə əlaqədar olaraq S?A-nın sorğusuna ”YAŞAT” Fondunun ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyev cavab verib.

Mətbuat katibi qeyd edib ki, ölkə ərazisində 2 927 şəhidin ailə üzvləri, habelə 5 848 yaralı olmaqla ümumilikdə 17 213 şəxslə görüşülüb, ehtiyacları qeydə alınıb (yashat.gov.az saytında) və 13 558 şəxsin 30 740 müraciəti icra üçün öhdəliyə götürülüb: ”Reallaşmış ödəniş sayı 24 873-dür. Ümumilikdə 182 şəxs müalicə edilməsi məqsədi ilə Türkiyə Respublikasına göndərilmiş, onlardan 175-i ağır yaralı, 7-si isə şəhid ailəsi üzvüdür. Müalicə alanlardan 160-ı ölkəyə geri qayıtmış, onlardan 155-i yaralı, 5-i şəhid ailəsi üzvüdür. Hazırda 20 ağır yaralının və 2 şəhid ailəsi üzvünün müalicəsi Türkiyə Respublikasında davam edir”.

## Ermənisiz Ermənistan..?

*Onu necə deyirlər...hə, aləmdirlər ey..!*



...Deməli Rusiyada qismən hərbi səfərbərliyə start verildiyi ərəfədə ermənilər də bundan”cuşə gələrək” erməni hərbi səfərbərliyindən danışmağa başlayıblar. Özü də elə-belə səfərbərlikdən yox, sırf ”sivil erməni səfərbərliyi”ndən dəm vururlar.

Amma onu da deyim ki, ermənilər ruslardan fərqli olaraq hərbi səfərbərliklərini qismən yox, tam, yəni total səfərbərlik keçirmək istəyirlər. Bəs, necə, ermənilər elə-belə səfərbərlikdən yox ey, dediyim kimi, ”sivil erməni səfərbərliyi”ndən danışırlar.

...Deyirəm, nə Sarkis Tsarukyanın yeridir. Gəlib ”döyüşkən erməni”lərə onların əsil ”voin” olduqlarını bir daha xatırladardı. Hə, indi nə olsun ki, 44 günlük müharibədə əsil ”voin” olan millətin 10 mindən artıq əsgəri ”dezertir” çıxdı. Demirəm ki, bir balaca qorxmuşdular,..yox, sadəcə olaraq,... bəlkə deyirəm, kiminsə təsiri altına düşmüş və əsil ”voin” olduqlarını unudublarmış.

Ona görə də, ermənilərə təcili olaraq Tsarukyanın İrəvana çağırtdırmağı məsləhət görürəm. Deyirəm, gəlib ermənilərin əsil ”voin” olduqlarını onlara bir daha xatırlatsın. Hə, onu da düşünürəm ki, Tsarukyan gəlmişkən elə ermənilərin sivil səfərbərliklərinin müəyyən hissəsini elə ona da həvalə etmək olar.

Çünki, bu sivil səfərbərlik, ermənilərin özləri demiş, əvvəlki səfərbərliklərdən fərqli olaraq tam olmalıdır. Yəni Ermənistanın, ”artsax”ın və diasporun birliyində, elə... Ermənistanın bütün vətənpərvərlərinin birliyində...

...Amma deyim ki, bu ”sivil erməni səfərbərliyi” ilə bağlı bütün məsələləri hələ ki, yerli ermənilərdən gizli saxlamaq lazımdır. Çünki, nə bilmək olar, birdən sivil səfərbərliklə bağlı plan faş olar,.. deyirəm onda Ermənistandan qaçanların qabağını almaq mümkün olmayacaq. Ona görə də erməni sivil səfərbərliyi ilə bağlı bütün sirlər hələ ki, elə sirr olaraq saxlanılmalıdır.

...Yoxsa, dediyimiz kimi, ölkədə olan-qalan ermənilər də qaçıb aradan çıxıb Ermənistanı...ermənisiz Ermənistana çevirərlər.

***Ağasəf Babayev***

# Sürət dövrü




***O günləri metroda qatar dayandı, iki gənc oğlan ağsaqqal, ağbirçək, uşaq-böyük demədən camaatı yarıb içəri keçdilər. Və biri o birinə dedi ki, ay qardaş, indi sürət zamanıdır ey, dayanmaq olmaz. Dayandın, batdın. O biri də bunun dediklərini başı ilə ürəkdən təsdiqlədi.***

Hə, indi tez-tez eşidirik həyatın sürətlənməsi, insanların qaçması fikirlərini. Belə çıxır ki, daha gərək yeriməyəsən, yalnız qaçasan. Maraqlıdır, deyilmi? Görəsən niyə axı yeriməyəsən, qaçasan?

Cavanlı-qocalı, uşaqlı-böyüklü camaat necə qaçsın axı? Yaxşı başladıq qaçmağa, həm də sürətlə qaçmağa. Küçədə çarpıldıq birinə, yıxıldıq yerə, xəstəxanalıq olduq, işə gecikdik. Ta bunun harası sürət dövrü oldu ki? Və yaxud küçə ilə qaçırsan, qaçmaq nədir, heç ahəstə belə yeriyə bilməyən bir qoca ilə rastlaşırsan, baxırsan ki, ona kömək lazımdır, lakin sən əhəmiyyət verməyib "dayana bilmərəm, indi sürət dövrüdür",- deyib qaçmağa davam edirsən. Bir başqa misal, məsələn, işə qaçırsan, görürsən ki, yolda bir uşaq yıxılıb, ona kömək lazımdır, lakin sən dayana bilmirsən, çünki sürət dövrüdür, qaçmalısan.

Bu cavan oğlanların söhbəti, həqiqətən, çox maraqlıdır ey. Görəsən bütün cavanlarımız belə düşünür? Görəsən hamı üçün indi sürət dövrüdür? Maraqlıdır, görəsən dəyişən nədir ki, sürət də həyatımızın bir parçası kimi səsləndirilir?

Çox düşündüm, çox daşındım, tapdım ki, niyə cavanlar bu dövrü sürət dövrü adlandırırlar. Hə, tənbəlliklərindən. Faktlara baxaq. İndiki cavanlar yuxuya çox böyük önəm verirlər, baxmayaraq ki, dövrü sürətli adlandırırlar. Onlar yatırlar, yata bildikcə. Qalxanda da görürlər ki, ay Allah, saat gör bir neçə olub. Ya işə, ya universitetə, ya dükana-bazara, ya nə bilim xəstəxanaya, kinoya, teatra, görüşə yubanıblar. Başlayırlar nə etməyə? Qaçmağa. Qaçanda da ağsaqqal, ağbirçəklərə yol verməkəvəzinə hələ üstəlik onlara guppultu ilə çırpılanda, uşaqları az qala vurub yerə yıxanda deyirlər ki, indi sürət dövrüdür, gərək sürətli hərəkət edəsən.

Ay bala, ay cavan oğlan, sən keçdiyin yollardan artıq biz qayıdırıq ey, fərqindəsən? Ay bala, həyat həmişəki həyatdır. Düzdür, dövran, zəmanə dəyişə bilər, amma vallah, həyat həmişəki həyatdır. Biz də gənc, cavan olmuşuq, biz də oxumaq, işləmişik, işləyirik də. Biz də sizin kimi bütün arzu və istəklərin, tələbatların ardınca getmişik. Lakin kimisə vurub yerə yıxmamışıq, ağsaqqalın, ağbirçəyin yoluna keçməmişik, uşaqlara qarşı kobudluq etməmişik. Bilirsiniz niyə? Çünki vaxtında oyanmışıq yuxudan, vaxtında planımızı qurmuşuq.

İndi siz həyatın sürətlənməyindən danışırsınız, vallah sizə o qədər gülməyim gəlir ki... Ay cavan oğlan, həyat məgər canlıdır ki, bir gün iməkləyə, bir gün yeriyə, sabahısı gün qaça? Yox, ay cavanlar. Həyat durub yerində. Onun başına nə gəlibsə, biz gətirmişik. Ona yeni texnologiyalar, internet aləmi bəxş etmişik. Həyat hərəmizin əlində olan bir telefondan bezib. Həyat ta bizim o telefonlardan öyrənib ona göstərdiklərimizdən usanıb. Həyat gecə yarıyadək telefonlarda sosial şəbəkələrdə gəzintidə olanların əlindən cana gəlib. Bu səbəbdən də həyat sizə yaxşı bir yuxu dərsi verir. Deyir, ey başı telefonlardan, kompüterlərdən qalxmayan, min bir texnoloji yeniliyin qurbanı olan cavanlar, yatın, yatın ki, bir dincələ biləsiniz.

Ay cavan oğlan, gecənin yarısından sonra yatdığınıza görə səhər tezdən elə həmin o telefonlarınızın sizi oyatmaq üçün əldən-ayaqdan getməsinə baxmayaraq qalxa bilmirsiniz ki, bilmirsiniz. Saatlar sonra dəli kimi oyanıb, görürsünüz ki, vay, günorta olub ey. Bilmirsiniz necə yuyunursunuz, necə geyinirsiniz, nə yeyirsiniz, nə içirsiniz, çünki tələsirsiniz axı. Ona görə də, ay bala, başlayırsınız qaçmağa. Adını da qoyursunuz, sürət dövrü.

Vallah, elə bütün dövrlərdə sürətə ehtiyac var. Yəni tələsmək mənasında demək istəyirəm. Amma böyüyə hörmət, ağsaqqala, ağbirçəyə yol vermək, uşaqları nəzərə almaq, küçədə-bacada qocaya, uşağa, xəstəyə yardım etmək, kiminsə imdadına çatmaq da bütün dövrlərdə olub. Bu dövrü sürət dövrü adlandırıb, siz Allah, bizim bu ənənələrimizi aradan çıxarmayın. Sürəti özünüzə tətbiq edir bir az. Dövrü sürət dövrü, həyatı sürətli adlandırıb onu ittiham etməyin. Özünüz də bir az sürətlənin. O lüzumsuz, mənasız aludəçiliklərdən əl götürün, görün həyatınız necə dəyişir, görün həyatınız necə yolunda gedir, eşidirsinizmi?

Qaçmaqla yıxılarsınız, dizinizi, başınızı yaralayarsınız. Küçədə-bacada böyüyü-kiçiyi vurub yıxarsınız. Qaçmayın, ay bala, yeriyin. Evdən tez çıxın ki, qaçmayasınız. Vaxtında oyanın ki, tələsib qaçmayasınız. Vaxtında yatın ki, vaxtında oyanıb qaçmalı olmayasınız. Vallah, nə bu həyat, nə də dövr sürətlənməyib. Siz sürətsiz olmusunuz. Bir az həyat tərzinizə fikir verin, görəcəksiniz ki, ta qaçmırsınız, yeriyirsiniz, yaxşı?..

**Mətanət MƏMMƏDOVA**

# İranlı jurnalistin "İrəvan Tehrana xəyanət etməyib" iddiası

*İranlı jurnalistin baş verənləri "hüduddan kənar" kimi qiymətləndirməsi, eləcə də bunun İran, ABŞ, Rusiya üçün qəbuledilməz olduğunu iddia etməsi, sadəcə, boş təxəyyül məhsulu kimi görünür*



**ABŞ** Konqresinin Nümayəndələr Palatasının sədri Nensi Pelosinin Ermənistana səfərinin ardınca gözlənilən məsələlərdən biri də uzun illər, eləcə də hazırda Ermənistana nəfəs yolu rolunu oynayan İranın sərt reaksiyası idi. Maraqlıdır ki, rəsmi Tehran məhz bu səfərlə bağlı İrəvana qarşı heç bir sərt bəyanat səsləndirmədi.

Sözügedən məsələ iranlı siyasi yazarlar tərəfindən də araşdırılmaqdadır. SİA xəbər verir ki, siyasi analitik Əli Heydəri tvit paylaşaraq yazıb ki, ABŞ Konqresinin Nümayəndələr Palatasının sədri Nensi Pelosinin Ermənistana səfəri barədə İranda müxtəlif fikirlər səslənir və bəziləri bunu İrəvanın Tehrana xəyanəti və İrana qarşı yeni təhlükə hesab edirlər. Lakin bu, tam əksinədir və həmin səfər İranın milli maraqlarına uyğundur. Belə ki, iranlı jurnalist bunu ABŞ və Rusiyanın guya Azərbaycanla Türkiyə faktoruna qarşı eyni motiv sərgiləmələri ilə əlaqələndirib. SİTAT: "Təsəvvür edirəm ki, Tehrana xəyanət etmək və ya Qafqazda Tehrandan yan keçmək barədə deyilənlər məlumatsızlıqdan və ya xüsusi məqsədlərdən irəli gəlir: Halbuki son hadisəni İranın milli maraqlarına uyğun dəyərləndirmək olar. ABŞ və Rusiya Bakı və Türkiyənin qeyri-məhdud rol oynamasına icazə verməyəcəklər və onların hər birinin bu məsələdə öz səbəbləri var", Əli Heydəri iddia edib.

Halbuki, Əli Heydəri unudub ki, Ermənistan Azərbaycanla nəinki sülh sazişini imzalamayıb, üstəlik...

Onun fikrincə, ABŞ, Rusiya və İran bölgədə yeni müharibəyə və geosiyasi dəyişikliklərə imkan verməyəcək. "Bakının indiyədək atdığı addımlar öz işğal olunmuş əraziləri çərçivəsində olub, bunun hüquqi və beynəlxalq əsasları var", deyə qeyd edən iranlı siyasi-analitik yazar ciddi səhvə yol verərək sentyabr hadisələrinin guya Azərbaycanın hüdudlarından kənar olduğuna eyham vurub. Halbuki, Əli Heydəri unudub ki, Ermənistan Azərbaycanla nəinki sülh sazişini imzalamayıb, üstəlik, bu prosesi ləngidir, əlavə olaraq isə hazırda əldə edilmiş bəyanatlardakı bəndlərin heç birinə əməl etmir, ən əsası isə sərhədlərin demarkasiyası və delimitasiyası prosesinə də əngəlləyir. Yəni sərhədlər tam müəyyən olunmadığına görə, iranlı jurnalistin baş verənləri "hüduddan kənar" kimi qiymətləndirməsi, eləcə də bunun İran, ABŞ, Rusiya üçün qəbuledilməz olduğunu iddia etməsi, sadəcə, boş təxəyyül məhsulu kimi görünür.



**Elçin Bayramlı**

# Bakıda avtobuslar hara yoxa çıxıb?

***Bu gün Bayılın 20-ci sahə dairəsi adlanan ərazisində işə gəlmək üçün avtobusa minmək istədim. Bu yaxınlaradək bu dayanacaqda həmişə azı 6-7 avtobus dayanmış olurdu, 5, 6, 88, 53, 205, 125 nömrəli marşrutlar buradan keçir, üstəlik, 5-in sonuncu dayanacağıdır. Bu gün isə ərazidə bircə avtobus belə yoxdur. İşə gedən sərnişinlər xeyli gözlədikdən sonra bir 5 nömrə özünü yetirir dayanacağa, ağzınadək sərnişin doldurub yola düşür. Salonda bürkü və havasızlıqdan bəzilərinin halı pisləşir, sürücüyə deyirlər ki, zəhmət olmasa kondisioneri yandırın, o isə bağırır- işləmir də, işləmir! Və nəinki kondisioneri, heç havalandırmanı da qoşmur. Neyləsin, yəqin müdiriyyət tapşırıb ki, biz çox pul qazanmalıyıq, avtobus ağzınadək dolu getməlidir, kondisioneri də açmayın, birdən 5-10 qəpik artıq yanacaq işlənər.***

Avtobus parklarının yaxınlığında yaşayanlar deyir ki, balkonumuzdan bütün avtobusların qarajda yatdığını aşkar görürük. Yəni BNA-nın bu vəziyyəti əsaslandırmaq üçün heç bir arqumenti yoxdur. Fakt çılpaqlığı ilə ortadadır. Hazırkı vəziyyətin səbəblərini anlamaq üçün 20-25 il əvvəlki vəziyyətə baxmalıyıq. Bir zamanlar bizdə də tramvay, trolleybus, elektrik qatarları və s. sistemləri mövcud idi. Həmin sistemlər var olduğu zaman nəqliyyatın və sərnişinlərin hərəkəti çox rahat olur. Müxtəlif nəqliyyat növlərinin işlədildiyi ölkələrdə sərnişindaşıma sistemi mükəmməl qurulur.

Ölkəmizdə yerüstü sərnişindaşımada yalnız avtobuslar qalıb. Onlar da faktiki olaraq yoxa çıxır. BNA qəsdən avtobusların çox az hissəsini xəttə buraxır. Mümkün qədər az avtobusla mümkün qədər çox sərnişin daşımaq prinsipi ilə hərəkət edilir. Məsələn, yüz sərnişini iki avtobusla daşımaqdansa, bir avtobusla daşımağa üstünlük verilir. Marşrut xətlərinin çoxu ləğv edildiyindən, sərnişinlər bir yerdən digərinə getmək üçün ən az iki avtobus dəyişməli olurlar. Şəhərin sərnişindaşıma xidməti əhaliyə xidmətdir, bu, pul qazanmaq strukturu deyil.

Avtobuslar azaldığından çoxları taksi ilə gedib-gəlməyə məcbur olur. İctimai nəqliyyatın azalması şəhərdə avtomibillərin sayını artırır ki, bu da daha bir problemə rəvac verir- tıxaclar artır.

Avtobusların vəziyyəti daha acınacaqlıdır. Şəhərin mərkəzi hissələrində bir neçə marşrutda müasir avtobuslar xəttə buraxılıb. Ancaq şəhərətrafı yerlərdə, hətta 90-cı illərin avtobuslarını görmək mümkündür. Həmin avtobuslar heç bir təhlükəsizlik normalarına cavab vermir. Qırıq-sökük, xarab vəziyyətdədir. Avtobuslar tez-tez yolda qalır, qəza törədir. Belə başa düşülür ki, şəhərdən kənarda yaşayan əhali pis şəraitdə, bir-birini əzərək, havasız avtobuslarda səyahət edə bilər. Ancaq söhbət gediş haqqına gələndə komfortlu avtobuslarla eyni məbləği ödəməlidirlər.

Daha ucuz yanacaqdan istifadə edildiyi halda, gediş haqqını bahalaşdırmağa çalışırlar. Sıxılmış qaz, benzindən və dizeldən ən pis halda 2-3 dəfə sərfəlidir. Belə halda qiyməti artırmaq yox, ucuzlaşdırmaq lazımdır. Vaxtilə dağıdılan sərnişindaşıma sisteminin yenidən bərpası üçün indi çox böyük sərmayə tələb olunur. Bu nəqliyyat növləri bərpa edilməsə, vəziyyət getdikcə pisləşəcək. Yaxşı ki, metro var. Yoxsa şəhərdə vəziyyət faciəvi olardı. Belə bir sistemlə heç bir halda normal sərnişindaşımadan söhbət gedə bilməz.

Bu kimi sosial problemlər cəmiyyətdə güclü aqressiya yaradır. Bu şəraiti də BNA yaradır. Çalışır ki, avtobuslarda "iynə" atmağa yer olmasın. Hətta pandemiya dövründə virusun daha sürətlə və kütləvi yayılması üçün BNA xüsusi "xidmətlər" göstərdi. Bunun başqa izahı yoxdur. Nəticədə, sərnişinlər sürücü ilə, bir-birilə davaya çıxır. Çünki hər bir sərnişin rahat səyahət etmək istəyir. Bu, onların haqqıdır, çünki bunun üçün pul ödəyirlər.

Bəzən avtobusun içərisində nəfəs almağa belə yer olmadığı üçün dayanacaqda saxlanılmır. Bəzəkli-düzəkli avtobusları almaqla iş bitmir. Xidməti təşkil etmək lazımdır. Bir çox ölkələr var ki, avtobusları bizimkilərdən daha ucuz və sadədir. Ancaq çox sistemli şəkildə hərəkət edir. 300 minlik avtobusları biz ağzına qədər dolu istifadə edirik. Sonra da tez sıradan çıxır. Yerüstü sərnişin nəqliyyatını sıfırlayıb, yenidən qurmaq lazımdır.

**_Rusiyalı hüquqşünas və ictimai xadim, Rusiya Təbiət Elmləri Akademiyasının müxbir üzvü Yanis Yukşa Caliber analitik mərkəzinə müsahibəsində Cənubi Qafqaz regionunda baş verən hadisələr və gedən proseslər haqda fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik._**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Yanis Yukşa: "ABŞ-ın İrəvandakı səfirliyində yüzlərlə kəşfiyyatçı işləyir"

## *"Bu, sadəcə olaraq ABŞ-ın hegemonluğu naminə səslənən axmaq ritorikadan başqa bir şey deyildir"*



**- Bildiyiniz kimi, prezident Vladimir Putin xalqa televiziya ilə müraciəti zamanı Rusiya-Ukrayna böhranı ətrafında vəziyyətlə bağlı bir neçə mesaj səsləndirib, bununla yanaşı, qismən səfərbərlik elan edib. Onun Rusiyanın özünü qorumaq üçün bütün vasitələrdən istifadə edəcəyi ilə bağlı açıqlamalarını necə qiymətləndirirsiniz? Bu, Moskvanın kütləvi qırğın silahlarından istifadə etməyə hazır olması anlamına gəlirmi?**

- Prezident Putin Qərb dünyası nöqteyi-nəzərindən sərt prezidentdir, baxmayaraq ki, Rusiyanın özündə daha radikal fikirlər var və bu halda mən onu böyük demokrat hesab edirəm. O, çox ehtiyatlı insandır, hər zaman danışıqlar aparmağa çalışır, ona görə də onu sərt siyasətçi kimi dəyərləndirən Qərb dərin səhvə yol verir.

Səfərbərliyə gəlincə, bizim kifayət qədər böyük ordumuz var- 1 milyondan çox, daha dəqiq desək, 1 milyon 200 min. Müvafiq olaraq, bu gün Ukrayna marşrutlarında kifayət qədər kiçik, məhdud kontingent var ki, bu da təxminən 120.000 nəfərdir. Deməli, hazırda bütövlükdə ordunun böyük müqavilə komponenti var. Problemi mümkün qədər tez həll etmək üçün öz potensialı və imkanları ilə rus qrupunun gücünü artıra bilən çoxlu peşəkar mütəxəssislər var.

Bu mərhələdə qismən səfərbərlik (300 min nəfər) bir çox sahələrdə çalışan mütəxəssisləri əvəz etmək və azad edilmiş qüvvələri Donbas istiqaməti kimi çətin bölgələrə göndərmək məqsədi daşıyır.

Hər bir dövlətin ən mühüm funksiyası öz müstəqilliyini və vətəndaşlarını qorumaqdır. Rusiya bunu istənilən yolla edəcək. "Rusiyanı məğlub edəcəyik və parçalayacağıq" kimi söhbətlər sadəcə olaraq ABŞ-ın hegemonluğu naminə səslənən axmaq ritorikadan başqa bir şey deyildir ki, bu, özlərini dünya hesab edən müəyyən qrup insan üçün bir alətdir. Hökuməti, tankları, gəmiləri öz istəkləri ilə hərəkət etdirə biləcəklərinə, insanları idarə edə biləcəklərinə, aclıq yarada biləcəklərinə, şəhərləri məhv edə biləcəklərinə və bütün ölkələri dağıda biləcəklərinə inanırlar və bütün bunlara yalnız onlara icazə verilir. Amma yanılırlar, əminəm ki, bütün bu qrupun necə iflasa uğrayacağını tarix göstərəcək və onlar cəzalandırılacaqlar.

**- Rusiya paralel olaraq Cənubi Qafqaz gündəmini diqqətlə izləyir, bununla bağlı prezident Putin bildirib ki, KTMT vasitəsilə Bakı ilə İrəvan arasında gərginliyin azaldılması istiqamətində tədbirlər görülür. Ermənistanda yenidən müşahidə olunan anti-Rusiya isteriyası fonunda KTMT-nin xüsusi missiyasının işinin nəticələrindən gözləntiləriniz nədir?**

- Qafqazın gündəliyinə gəlincə, bu gün onun niyə təbliğ olunduğu tam aydındır. Ermənistan Cənubi Qafqazda ABŞ-ın ən böyük varlığına, 1000-dən çox rəsmi işçisinə malik olan yeganə ölkədir ki, onların da əksəriyyəti ABŞ kəşfiyyat sistemini təmsil edir. Ona görə də təbii ki, müəyyən kənar qüvvələr Ermənistanı problem zonasına salmağa çalışacaqlar.

KTMT-nin missiyasına gəlincə, mən inanıram ki, o, Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanması yollarını təklif edən bəzi tövsiyələr hazırlayacaq. Ermənistanın bu təkliflərlə razılaşması çox vacibdir. Mənə elə gəlir ki, bu tövsiyələrin həyata keçirilməsi istiqamətində hərəkət qarşılıqlı olmalıdır. Bəli, təbii ki, Ermənistandan çox şey asılıdır, amma Azərbaycandan da asılı olan məsələlər var. Ona görə də ümid etmək istərdim ki, tərəflər hələ də regionda sülhün bərqərar olması üçün kompromis tapacaqlar.

**- Yəni sizcə, Bakı ilə İrəvan arasında dinc dialoqa nail olmaq və hərtərəfli sənəd imzalamaq olar?**

- Bəli, mən Ermənistanla Azərbaycan arasında hansısa dialoqa nail olmağın və sülh sənədinin imzalanmasının mümkünlüyünü istisna etmirəm. İnanıram ki, iki qonşu dövlət üçün belə həssas mövzunu sarsıtmamağa imkan verəcək qüvvələr və müəyyən düzgün düşüncə istiqamətləri olacaq.

**- Ermənistan rəhbərliyi ölkənin KTMT-dən çıxması ilə bağlı rəsmi qərar qəbul etməyə qadirdirmi?**

- Ermənistan KTMT-dən çıxmayacaq, bu, ölkəni bir çox imtiyazlardan məhrum edəcək çox ciddi addım olardı. Düşünürəm ki, Ermənistan rəhbərliyi də bunu başa düşür və xəbərdardır.

***Tərcümə - Elçin Bayramlı***

# İran olayları - hadisələr nəyi göstərir?

## *Baş verənlərin bütövlükdə bölgəmizə mənfi təsirlər göstərməməsi, daha böyük insan tələfatlarının baş verməməsi üçün siyasi-münbit yollar axtarılmalıdır*







Sirr deyil ki, qonşu İran İslam Respublikası dünyanın maraq kontekstində kifayət qədər həssas coğrafiyada yerləşir və eyni zamanda, bu ölkədəki siyasi quruluşun bir sıra məqamları da zaman-zaman insanların sosial və s. tipli narazılıqlarına səbəb olur, habelə ölkədaxili çalxalanmalar da yaşanır. Ümumiyyətlə, xatırlada bilərik ki, son proseslərlə yanaşı, İranda daha əvvəllər də ciddi narazılıqlar böyük etirazlarla müşahidə edilib, hətta hadisələr hakimiyyətin güc strukturları daxil çoxsaylı insan tələfatları ilə nəticələnib. İddialar var ki, cərəyan edən olaylarda Qərb dairələrinin də təsirləri mövcuddur. Lakin əsas etirazçı cinahlar İranın ictimai-siyasi fəalları və qollarıdır ki, məhz sosial narazılıqlardan doğan məsələlər axarlı şəkildə siyasi narazılıqlara transfer olunur. Eyni zamanda, bu narazılıqlarda milli azlıqların da rol oynaması istər-istəməz öz sözünü deməkdədir.

### Bu narazılıqlar, əsasən, sosial etirazlarla əlaqəlidir

Beləliklə, İran təxminən beş-on ildən bir titrəyir və bu faktor sanki ənənə şəklini alıb. Ölkədə kiçik və böyük təlatümlər baş verir. Budəfəki etirazlar müqəddəs Məşhəd şəhərindən başladı və çox sürətlə paytaxt Tehran olmaqla, digər şəhərlərə - Təbrizə, Urmiyaya, Ərdəbilə, Rəştə və s. yayıldı. Maraqlıdır ki, soydaşlarımızın ən çox yaşadıqları bölgələrdə digər milli azlıqlar da bir araya gələrək etirazlarda bir-birlərinə ardıcıl dəstəklər göstərirlər. Üstəlik, güc strukturları ilə insanlar arasında qarşıdurmalarda təəssüf ki, çoxsaylı ölüm hadisələri də baş verib. Bununla paralel olaraq polis və s. güclərin bir qisminin etirazçı qismə qoşulmaları barədə də məlumatlar var.

Ancaq hər şeyə rəğmən, bu narazılıqlar, əsasən, sosial etirazlarla əlaqəlidir. Xüsusilə, hicab etirazlarından başlayan təlatümlər də belə qənaətə gəlməyə zəmin yaradır. 22 yaşlı gənc qızın ölümü isə bu proseslərə təkan verdi.

### Məsələ bəzi məqamlarda sosial cəhətdən siyasi cəhətə doğru inkişaf etməkdədir

Başqa tərəfdən, etiraz yürüşlərində siyasi şüarlar da səsləndirilir. Məsələn, rəsmi Tehranın Qüds və Suriya məsələsində fəallığı əleyhinə şüarlar eşidilir. Bu isə həm də belə deməyə əsas verir ki, artıq məsələ bəzi məqamlarda sosial cəhətdən siyasi cəhətə doğru inkişaf etməkdədir. Belə ki, bir sıra iranlı siyasi şərhçilər iddia edirlər ki, baş verən hadisələri İranın regional siyasətindən narazı qalan ABŞ, Səudiyyə Ərəbistanı və İsrail kimi dövlətlərin müəyyən dairələri həyata keçirirlər. Misal üçün, iddialar irəli sürülür ki, əgər İsrail kəşfiyyatı İranın daxilində nüvə çalışmaları aparan alimləri neytrallaşdıra bilibsə, bu ölkənin daxilində narazılıq yaratmaq kimi planı da hərəkətə gətirə bilərdi və s.

İran regional dövlət olaraq tarixlərdən bəri coğrafiyamızda yer alır...

Ancaq digər tərəfdən, İranın regional siyasətində mövcud olan bəzi məqamlar həm də belə nəticələr hasil edir ki, bu ölkədə yaşayan 40 milyonluq azərbaycanlıların taleyinə də biganə qalına bilinməz.

O cümlədən, Tehranın Ermənistanla yaxınlığı, işğalçı dövlətə nəfəslik verməsi də narahatedici məsələlərdəndir. Lakin bu, o demək deyil ki, İranda baş verənlər davam etməlidir, əksinə, qanlı-qadalı hadisələrin qarşısının alınması üçün bütün mümkün vasitələrdən istifadə edilməlidir. İran regional dövlət olaraq tarixlərdən bəri coğrafiyamızda yer alır və bu prinsipləri nəzərə almaqla deyə bilərik ki, həmin hadisələrin bütövlükdə bölgəmizə mənfi təsirlər göstərməməsi, daha böyük insan tələfatlarının baş verməməsi üçün siyasi-münbit yollar axtarılmalıdır.

***Rövşən RƏSULOV***

ANALİTİK-AKTUAL

SON SƏHİFƏ
SƏS
24 sentyabr
2022-ci il

# DİQQƏT: Məişət zorakılığı zamanı nə etməli?

***Son zamanlar ailədaxili münaqişələr kəskin şəkildə artıb. Biz hətta qadının kişini öldürdüyünün belə şahidi olmuşuq. Ümumiyyətlə, bu cür hallar qanunla necə tənzimlənir? Ailədə şiddət görən qadın və ya kişi qanuna uyğun olaraq hansı quruma müraciət etməli və hansı tədbirləri görməlidir?***



VƏKİL ƏHATƏLİ İZAH ETDİ

Vəkil Turan Abdullazadə SİA-ya açıqlamasında bildirib ki, məişət zorakılığı dedikdə yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə, qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurması başa düşülür".

Onun sözlərinə görə, məişət zorakılığı barədə şikayətdə törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlar olduqda həmin şikayətlərə cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada baxılır: "Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayətə müvafiq icra hakimiyyəti orqanları tərəfindən baxılır. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda şikayətlərə baxılma qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. İnzibati Xətalar Məcəlləsinin 158.1-ci maddəsinə əsasən məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqinə, yeni şəxs tərəfindən digər şəxsin onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum edilməsinə, iqtisadi asılılıq yaradılmasına, belə asılılığın saxlanılmasına və ya ondan sui-istifadə edilməsinə yönəlmiş hərəkətlərə görə- yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir.

Həmin Məcəllənin 158.2-ci maddəsinə əsasən, məişət zəminində psixi zorakılığa, yeni şəxs tərəfindən digər şəxsə qəsdən psixi təzyiq göstərilməsinə və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlərə görə-üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir".

Vəkil bildirib ki, məişət zorakılığı üzrə araşdırmanın aparılması üçün bunlar səbəb ola bilər: "Zərər çəkmiş şəxsin özünün və ya onun ailə üzvlərinin şikayəti, fiziki və ya hüquqi şəxslərdən, dövlət və yerli özünüidarə orqanlarından, o cümlədən təhsil və ya tibb müəssisələrindən, qeyri-hökumət təşkilatlarından, kütləvi informasiya vasitələrindən daxil olmuş müraciətlər. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayət yalnız zərər çəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı olduqda araşdırılır.

Məişət zorakılığı barədə şikayətlərə baxılmasının nəticələrindən asılı olaraq bu qərarlardan biri qəbul olunur. Məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsə qanunvericiliklə müəyyən olunmuş məsuliyyət izah edilməklə, məişət zorakılığının təkrarlanmaması barədə xəbərdarlıq edilməsi və zərər çəkmiş şəxsə qısamüddətli mühafizə orderinin verilməsi, məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsin qanunvericiliklə müəyyən olunmuş qaydada valideynlik hüququndan məhrum edilməsi və ya valideynlik hüquqlarının məhdudlaşdırılması ilə bağlı məhkəməyə müraciət edilməsi, əməllərində cinayət və ya inzibati xəta olan şəxsin qanunvericiliklə müəyyən olunmuş qaydada cinayət və ya inzibati məsuliyyətə cəlb edilməsi barədə səlahiyyətli dövlət orqanlarına müraciət edilməsi, zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi ilə əlaqədar məhkəməyə müraciət edilməsi, zərər çəkmiş şəxsin yardım mərkəzində sığınacaqla təmin edilməsi.

Zərər çəkmiş şəxsə qısamüddətli və ya uzunmüddətli mühafizə orderi verilə bilər. Qısamüddətli mühafizə orderində məişət zorakılığını törətmiş şəxsə aşağıdakılar qadağan edilə bilər".

*Arzu Qurbanlı*

## Başsağlığı

"Səs" Media Qrupu adından Bəhruz Quliyev YAP Pirallahı rayon təşkilatının sədri Emil Abbasova anası

**Hüsnücahan xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlıgı verir.

**Allah rəhmət eləsin!**

* * *

YAP Oguz rayon təşkilatının sədri Saleh Məhərrəmov və təşkilatın əməkdaşları adından YAP Pirallahı rayon təşkilatının sədri Emil Abbasovun anasının vəfatı ilə bağlı kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsaglığı verir.

**Allah rəhmət eləsin!**

## Yeməyin hansı saatda yeyilməsi psixikaya təsir edir

Yemək yeyilmə vaxtı insan psixikasına təsir edir. Milli.az bildirir ki, Brigham Hospital kiçik elmi araşdırmada gecə saatlarında yemək yeyənlərin ciddi psixi problemlər yaşadığını sübut edib.

Qida qəbulunda heç bir yeniliyə ehtiyac yoxdur. Ənənəvi səhər, günorta, axşam yeməyi qrafikinə əməl etməlidir.

Lakin çox insanlar iş rejiminə görə buna əməl etmir. Gecə yeyib yatanlarda təşviş pozuntusu və depressiya əmələ gəlir.

Bu insanlar psixi dözümsüz olur.

Yeməyin vaxtında yeyilməməsi orqanizmin sirkad ritmini pozur.

Burdan da psixi dözümsüzlük başlayır.

Alimlər təşviş pozuntusu və depressiyası olan insanların qidalanma vaxtını dəyişməyin onların əhvalına təsir edəcəyini bildirib.

Məsələn, xəstəxana, təcili yardım, fabriklərdə işləyənlərdə qida rejimi dəyişik olduğu üçün depressiyadan daha çox əziyyət çəkirlər.





## Şakira ayrılıqdan sonra ilk dəfə - "Karyeramı Pikeyə qurban verdim"

*Məşhur müğənni Şakira sevgilisi futbolçu Jerar Pikedən ayrılandan sonra ilk dəfə kamera qarşısına keçərək məsələ ilə bağlı açıqlama verib. Axşam.az xəbər verir ki, ifaçı "Elle"yə müsahibəsində həyatının bu mərhələsini "ən qaranlıq dövrlərdən biri" adlandırıb.*

"Bu barədə şəxsən danışmaq həqiqətən çətindir, xüsusən də ilk dəfə müsahibəmdə bu mövzuya toxunacağam. Susdum və hər şeyi düşünməyə çalışdım. İctimaiyyət qarşısında olduğum üçün ayrılığımız normal formada olmadı. Ona görə də təkcə mənim üçün yox, uşaqlarım üçün də çətin idi. İnanılmaz dərəcədə çətin...

Paparatsilər gecə-gündüz evimin qarşısında növbə çəkirdilər və mənim evdə uşaqlarla birlikdə onlardan gizlənməyə yerim yox idi. Biz adi bir ailə kimi parkda gəzə, dondurma yeyə və ya paparassilər bizi təqib etmədən heç nə edə bilmirik. Yəni, çətindir".

O, Pike ilə arasındakı problemin və bu mərhələnin uşaqları üçün çətin olduğunu vurğulayıb:

"Mən isə bu vəziyyəti uşaqlarımın hiss etməməsi üçün susaraq yaşamağa çalışdım. Onları qorumağa çalışıram, çünki bu, mənim həyatda bir nömrəli missiyamdır. Amma sonra onlar məktəbdə dostlarından nəsə eşidirlər və ya sosial şəbəkədə pis xəbərlərə rast gəlirlər, bu, sadəcə olaraq onları incidir.

Bacardıqca vəziyyəti onlardan gizlətməyə çalışıram. Valideynləri ayrılan uşaqlar çox üzülür. Bəzən mənə elə gəlir ki, bütün bunlar pis yuxudur və nə vaxtsa oyanacağam. Amma yox, bu realdır. Həm də real olan, uşaqlarımın atası ilə münasibətimin media tərəfindən vulqarlaşdırılmış və dəyərsizləşdirilən bir şeyə çevrildiyini görməyimdir. Bütün bunlar atamın reanimasiyada olduğu müddətdə baş verdi və mən müxtəlif problemlərlə eyni anda mübarizə aparırdım.

Dediyim kimi, bu, bəlkə də həyatımın ən qaranlıq vaxtıdır. Amma sonra dünyadakı bütün o qadınları düşünürəm. Çətin günlər keçir, mənimki qədər pis və ya daha da çətin günlər yaşayanlar var. Mənim kimi ailə dəyərlərinə inanan, ömürboyu bir ailə sahibi olmaq arzusunda olan qadınları ki, bu xəyalın parça-parça olduğunu görmək, keçə biləcəyi ən ağrılı dövrlərdən biridir. Amma düşünürəm ki, biz qadınlar dözümlüyük. Bu dözümlülük bizdə anadangəlmədir".

Şakira qəyyumluqla bağlı məsələyə də toxunub:

"Nə olursa olsun, Pike övladlarının atası olaraq qalır və o, ümid edir ki, onlar gələcəkləri üçün nəyin yaxşı olduğunu anlaya biləcəklər".

İfaçı illər əvvəl Pikenin karyerası üçün öz sənətini qurban verdiyini deyib:

"İkimizdən biri nəyisə qurban verməli idi. Ya o, "Barselona" ilə müqaviləsini ləğv edib mənimlə karyeramın inkişaf etdiyi ABŞ-a köçəcək, ya da mən bunu etməliyəm. Mən bunu etdim. Karyeramı arxa plana atdım və onun futbol oynaya, titullar qazana bilməsi üçün İspaniyaya köçdüm. Və bu sevgi üçün bir qurban idi".

## Futbol topuna bənzər mobil evlər



***Futbol toplarına bənzər mobil evlər kiçik olmaqla kosmik gəmilərə oxşayır. Xarici saytların yazdığına görə, sahəsi təqribən 50 kvadratmetr olan bu antiseysmik evlər sifarişçinin arzusu ilə istənilən ərazidə, eləcə də okean sahillərində quraşdırıla bilər. Memarların fikrincə, bu evlər sakinlərə zəlzələ və sunamidən sağ çıxmağa imkan verəcək, çünki təhlükəsiz olmaqla yanaşı, su üzərində qalmağa qadirdir.***

## BİLİRSİNİZMİ?



**İlk saat (günəş saatı) qədim Misirdə ixtira edilib.**

* * *

**İndoneziyada bazarlıq zamanı satıcı pulu yerə atarsa, bu, son qiymət deməkdir.**

* * *

**Panamada əgər sizin gözəlliyiniz varsa, sizə 20% endirim eləyərlər.**

* * *

**Heç bir kağız parçası 7 dəfədən artıq bükülə bilmir.**

* * *

**Atların insanlardan 18 ədəd daha çox sümüyü var.**

* * *

**Bir qarışqa öz ağırlığının 50 qatını qaldıra bilər.**

* * *

**Pişiklər ultrason səslərini eşidə bilirlər.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3600